

**Müstəqillik tarixinin ən böyük büdcəsi**

8

SƏS
№ 207 (6407) 13 noyabr 2021-ci il. Qiymətı 40 qəpik



# Qarabağda vəziyyəti kim gərginləşdirir?: Xankəndi ilə bağlı gizli plan üzə çıxdı!

# Ali təltiflərə layiq mütərəqqi siyasi xadim və Lider!

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunub*




## "Erməni radikalları hesab edir ki, Ermənistanın məğlubiyyətində Rusiya günahkardır"

15



**HƏRBİ EKSPERT: "Əsas günahların bir hissəsi Rusiya sülhməramlılarının üzərinə düşür"**

*""Bu gün Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanatın imzalanmasının ildönümüdür.*

15

Sülhməramlı Təşəbbüslər və Konfliktologiya İnstitutunun direktoru, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin dosenti Denis Denisov "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda yaranmış geosiyasi vəziyyətlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

## Erməni KİV: "Bu gün Azərbaycan öz ərazisində nə istəyirsə onu da edir"

13



*Ermənistanın "Joxovurd" qəzetinin yazdığına görə, hazırda Ermənistan hakimiyyəti üçtərəfli bəyanatda əks olunmuşları həyata keçirir, sadəcə bu, ictimaiyyətə hissə-hissə təqdim olunur.*

## Bu şəxslər azadlığa çıxdı - Amnistiya aktı kimlərə şamil olunur?



9



## "Büdcə əvvəlki illərə nisbətən daha böyükdür"

*"Baxmayaraq ki, Azərbaycan böyük bir problemin içərisindən çıxıb. Hansı ki, bu problemlər birincisi Qarabağ müharibəsi və ikincisi isə koronavirus pandemiyasıdır. Bununla belə büdcəni sabit saxlamaq mümkün oldu".*

**Koronavirus həyatımızda nələri dəyişdi?**

10

COVID-19 epidemiyasından sonra "heç nə əvvəlki kimi olmayacaq" ifadələri qəribə görünsə də, bir çox vərdişlərimizin başqa vərdişlərlə əvəz olunduğunu və dəyişdiyini görə...



## "Kaş münasibətlər bu qədər çirkin olmasaydı"

16



*Məşhur türk aktrisa Bensu Soral evliliyi və hələ də həssas bir proses yaşayan əri Hakan Başla bağlı sualları cavablandırıb.*



## Antimilli şəbəkənin buyruq qulları - AXCP-"Milli Şura"-"beşinci kalon"...

13

*Göz eyni nöqtəyə baxmaqdan, dil eyni yalanı danışmaqdan, qulaq eyni sözləri eşitməkdən yoruldu. Amma dağıdıcı müxalifət yorulmadı.*




## Neymar məşqə 12 milyonluq helikopterlə gedib

16

**Futbol üzrə Braziliya millisinin və PSJ-nin üzvü Neymar yenidən diqqət mərkəzinə düşüb.**

# “Zəngəzur koridoru türk dünyasını birləşdirə biləcək bir layihədir”

## İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib



***Dünən İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.***



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları gəmi ilə İstanbulun Demokratiya və Azadlıqlar Adasına gəldilər.

Qeyd edək ki, əvvəllər Yassıada kimi tanınan adanın adı 2013-cü ildə Demokratiya və Azadlıqlar Adası olaraq dəyişdirilib və 2015-ci ildən burada yenidənqurma işləri aparılıb. Yenidənqurma işləri başa çatdıqdan sonra ötən ilin may ayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış mərasimi keçirilib. Türkiyə demokratiyasının rəmzi hesab edilən 18 hektarlıq adada ”Adnan Menderes” konqres mərkəzi, ”27 May Tarix Yaylası”, ”Demokratiya və insan haqları” muzeyləri, beynəlxalq toplantılar üçün salonlar və digər binalar inşa edilib. Adada demokratiyanın rəmzi olan mayak ucaldılıb.

Dövlət Başçıları Şurasının iclasını açan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bütün qonaqları İstanbulda salamladı, Zirvə Görüşünün əlaqələrimizdə yeni mərhələ açacağına əminliyini ifadə edərək dedi: ”Sədrliyi təhvil aldığımız Can Azərbaycana, pandemiyaya baxmayaraq, həyata keçirdiyi uğurlu fəaliyyətlər münasibətilə təbriklərimi çatdırıram”.

”Siyasi və ictimai həmrəylik kimi, iqtisadi və ticari əlaqələri də gücləndirmək lazımdır”, - deyən Türkiyə Prezidenti hazırda türkdilli ölkələr arasındakı ticarət dövriyyəsinin 21 milyard dollar təşkil etdiyini bildirdi, qarşılıqlı sərmayələrin əhəmiyyətini, bu sahədəki maneələrin aradan qaldırılmasının vacibliyini vurğuladı. Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında nəqliyyat və logistika sahələrində əlaqələrin möhkəmləndirilməsinin vacibliyindən də danışaraq dedi: ”Bu çərçivədə ”Beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş”i ən qısa zamanda imzalamalıyıq. Beləliklə, Xəzərdən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi başda olmaqla aramızdakı bütün yolları bu coğrafiyanın əsas arteriyalarına çevirə bilərik. Azərbaycan-Naxçıvan bağlantısı da bu mənada həyati əhəmiyyət daşıyır”.

Zirvə Görüşünün ”Rəqəmsal dövrdə yaşıl texnologiyalar və ağıllı şəhərlər” mövzusuna həsr olunduğunu deyən Rəcəb Tayyib Ərdoğan bu baxımdan Zəngilanda görülən quruculuq işlərindən bəhs etdi. ”Ağıllı şəhərləşmə sahəsində işğaldan azad edilən Zəngilanda başladılan təşəbbüs, Türkistanın inkişafı, Ahaldakı intensiv fəaliyyətlər, Budapeştdə görülən işlər, Qırğızıstanda və Özbəkistandakı fəaliyyətlər təqdirəlayiqdir”, - deyə Türkiyə Prezidenti vurğuladı.

Prezident Rəcəb Tayyib Ərdoğan qlobal istiləşmə, həmçinin terrorizmlə mübarizədə səylərin birləşdirilməsinin əhəmiyyətini də qeyd etdi. Türkiyə dövlətinin başçısı: ”İndi qardaşım cənab Əliyevə Ordenin təqdim olunması mərasiminə başlayırıq”.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim edib:

- Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev.

Qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır.

Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir.

Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan ”Xarıbülbül” türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb.

Fürsətdən istifadə edərək əziz Qardaşım cənab İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim etməkdən dərin məmnunluq duyur, azadlıq yolunda şəhid zirvəsinə ucalan qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm.



Daha sonra dövlətimizin başçısı Zirvə Görüşündə çıxış edib. Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında qeyd edib ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır:

- Əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan,

Əziz dövlət-hökumət başçıları,

İlk növbədə, bu yüksək mükafata görə, Türk Dünyasının Ali Ordeninə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər.

Ardı Səh. 3

# "Zəngəzur koridoru türk dünyasını birləşdirə biləcək bir layihədir"

## İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib




*İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır.*






Əvvəli-Səh-2

Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır.

İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik. Çünki hörmətli Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi. Bu, bəzi qüvvələri - Ermənistan himayədarlarını bu savaşdan kənarda tutdu və bizə imkan verdi ki, biz bu şərəfli missiyamızı yerinə yetirək.

Əziz Qardaşım, hörmətli Prezident, əziz dövlət və hökumət başçıları, mən bir daha buna görə sizin hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Rəmzi hal ondan ibarətdir ki, bu mükafatı Azərbaycan Türk Şurasına sədrliyi Türkiyəyə təhvil verən zaman alır. Eyni zamanda, bu, son iki il ərzindəki bizim işlərimizə də verilən qiymətdir və bu şərəfli missiyanı Türk Şurasındakı və bundan sonra Türk Dövlətləri Təşkilatındakı sədrlik müddətini artıq əziz Qardaşım Rəcəb Tayyib Ərdoğan öz üzərinə götürür. Əminəm ki, onun liderliyi ilə bizim ölkələrimiz arasındakı birlik, həmrəylik, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulmuş əlaqələr daha da möhkəmlənəcək və türk dünyasının lideri olan hörmətli Cümhurbaşqanının bu işdə uğur qazanacağına heç şübhəm yoxdur. Çünki onun siyasəti və liderliyi sayəsində Türkiyə son illər ərzində böyük və şərəfli yol keçmiş, dünya miqyasında güc mərkəzinə çevrilmiş və təkcə bölgədə yox, dünya miqyasında söz sahibinə çevrilmişdir. Hesab edirəm ki, Türkiyənin gücünü - siyasi, iqtisadi, hərbi gücünü, indi dünyada bilməyən yoxdur və əziz Qardaşımın liderliyi sayəsində Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir. Çünki türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir. Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir və buna görə hər birimiz əziz Qardaşıma minnətdar olmalıyıq. Azərbaycan xalqı adından bu gün böyük şərəflə danışaraq əziz Qardaşıma Azərbaycan xalqının hədsiz məhəbbətini çatdırıram. Tayyib bəyi Azərbaycanda savaşa qədər hər kəs sevirdi, savaşda bizə göstərdiyi bu böyük dəstəyə görə isə Tayyib bəy Azərbaycan xalqının qəlbində yaşayır və əbədi yaşayacaq.

Mən çox şadam ki, bu gün biz türk dövlətləri arasındakı birlikdən danışarkən gələcəyə baxırıq. Çünki bizim gələcəyimiz, birgə gələcəyimiz üçün çox möhkəm zəmin var, möhkəm təməl var. Bu, bizim ortaq köklərimizdir, dilimizdir, dinimizdir və ortaq maraqlarımızdır.

Azərbaycan ikiillik sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir. Bir çox tədbirlər keçirilmişdir. Hesab edirəm ki, biz hazırda daha bütöv, daha birləşmiş şəkildə gələcəyə addımlayırıq. Bugünkü Zirvə Görüşünün çox böyük tarixi əhəmiyyəti var. İlk növbədə, ona görə ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var. Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk. Bizim xalqlarımız arasındakı birlik, qardaşlıq gündən-günə möhkəmlənir və biz bu gün böyük coğrafiyanı əhatə edirik, böyük iqtisadi, siyasi, hərbi gücü bu coğrafiyada ehtiva edirik. Bizim ölkələrimizdə zəngin təbii qaynaqlar var, müasir infrastruktur var, nəqliyyat yolları var. Türkiyə hərbi, iqtisadi və sənaye gücə malik olan ölkədir. Təkcə onu demək kifayətdir ki, Türkiyə NATO-nun ikinci ən güclü ölkəsidir və bunu öz maraqlarını və dünyada sülhü təmin etməklə dəfələrlə göstərmişdir. Ona görə mən çox ümidliyəm ki, bizim təşkilatımız qarşıda duran bütün vəzifələri icra edəcəkdir.

Son iki il ərzində önəmli hadisələrdən biri Türkmənistanın bizim təşkilata müşahidəçi qismində qoşulmasıdır. Bu da təbiidir və mən böyük məmnuniyyətlə bu haqda bu gün hələ ki, təşkilata sədrlik edən şəxs kimi deyirəm. Bizim türkmən qardaşlarımızı da ürəkdən salamlayırıq və bu, çox önəmli addımdır. Eyni zamanda, Bakı Zirvəsində Özbəkistan bizim Şuraya üzv oldu, bu da çox önəmli hadisədir. Mən xatırlayıram, 2009-cu ildə Naxçıvan Zirvə Görüşündə o vaxt Naxçıvan sazişi imzalanmışdı. Onu dörd lider imzalamışdı. Amma bu gün bizim sayımız 7-yə çatıb. Bu, onu göstərir ki, bizim təşkilatımız çox cəlbedicidir və əminəm ki, hər bir üzv və hər bir müşahidəçi bundan sonra da bir nöqtəyə vuraraq bizim gücümüzü artıracaqdır.

Dörd gün əvvəl Azərbaycan xalqı Qarabağın azad olunmasının birinci ildönümünü sevinclə və qürurla qeyd edirdi. Biz təxminən 30 illik işğala son qoyduq. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi və kağızda qaldığı qətnamələri yerinə yetirdik, icra etdik. Tarixi ədaləti bərpa etdik, beynəlxalq hüququ bərpa etdik, milli ləyaqətimizi bərpa etdik. Bu Zəfər tarixi əhəmiyyət daşıyır. Çünki bu, ədalətli müharibə idi. Biz öz torpağımızda vuruşurduq, qan tökürdük, şəhidlər verirdik. Bizim başqa ölkələrin torpağında heç vaxt gözümüz olmayıb və İkinci Qarabağ savaşının nəticələri bunu göstərir. Çünki müharibə dayanan gün artıq bütün atışmalara, bütün xoşagəlməz hallara son qoyuldu. Müharibənin ilk günlərindən mən açıq bəyan edirdim ki, əgər Ermənistan bizə torpaqlarımızdan öz qoşunlarının çıxarılma tarixini, təqvimini verərsə, biz hər an həmin müharibəni dayandırmağa hazırıq və sözümüzə əməl etdik. 44 gündən sonra Ermənistan təslim aktını imzalayaraq o vaxta qədər azad edilməmiş torpaqlardan da özü çıxmağa məcbur olmuşdur və beləliklə, İkinci Qarabağ savaşı başa çatmışdır. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kəndi işğalçılardan azad etdik və yüzlərlə şəhər və kənd artıq sülh prosesi nəticəsində azad edilmişdir və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir.

Ardı Səh. 4

# “Zəngəzur koridoru türk dünyasını birləşdirə biləcək bir layihədir”

## İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib




*Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik.*



**Əvvəli-Səh-3**

Azad edilmiş torpaqlarda hər şey dağıdılıb. Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı azad edilmiş torpaqlara iki dəfə səfər edib. İyun ayında Şuşaya və bu yaxınlarda - oktyabr ayında Füzuli və Zəngilana səfər edərkən bunu əyani şəkildə görüb. Bu bölgələrin - Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün bu gün bizə ən çox dəstək verən yenə də qardaş Türkiyəmizdir. Türkiyənin bir çox şirkətləri bu gün bizim üçün çox önəmli infrastruktur layihələrində çalışırlar, - körpülər, tunellər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanları, - bütün bu işlərdə fəal iştirak edirlər. Hörmətli Cümhurbaşqanı ilə birlikdə bu yaxınlarda açdığımız Füzuli Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə bərabər, 12 türk şirkəti iştirak etmişdir. Hesab edirəm, məhz buna görə biz rekord müddət ərzində, cəmi 8 ay ərzində inşa edə bildik. Hazırda Türkiyə şirkətləri, eyni zamanda, Zəngilan Hava Limanının inşasında iştirak edirlər və bizim digər layihələrimizdə iştirak edəcəklər.

Eyni zamanda, mən Şavkat Miramanoviç Mirziyoyevə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Şəxsən onun təşəbbüsü ilə Füzuli rayonunda Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcəkdir. Məktəbin layihəsi bizə təqdim edildi və bu, növbəti həmrəylik, dostluq, qardaşlıq addımıdır və Azərbaycan xalqı bunu çox qiymətləndirir.

Biz indi böyük bərpa işləri ilə məşğuluq. Eyni zamanda, İkinci Qarabağ savaşının nəticələri bölgə üçün yeni imkanlar açır. O cümlədən hesab edirəm ki, nəqliyyat baxımından Zəngəzur koridorunun açılması bütün bölgə üçün yeni imkanlar açacaqdır. Ümid edirəm, öz işğalçılıq siyasətinə görə məğlub vəziyyətdə olan Ermənistan da gec-tez anlayacaq ki, heç bir ölkəyə ərazi iddiası onlara xeyir və şərəf gətirməyəcək. Ümid edirəm ki, yaxın gələcəkdə Ermənistanın həm Türkiyəyə, həm Azərbaycana ərazi iddialarına son qoyulacaq. Əks təqdirdə onlar daha da pis duruma düşə bilərlər. Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir və bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlər gedir.

Zəngəzura gəldikdə, mən Naxçıvan zirvəsindəki çıxışımı xatırlatmaq istəyirəm. O zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq. Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı, hörmətli dövlət və hökumət başçıları, bu yüksək mükafata görə sizə bir daha minnətdaram. Əminəm ki, mən bundan sonrakı fəaliyyətimdə bu yüksək ada layiq olmağa çalışacağam.

Sağ olun.

x x x

Prezident Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına minnətdarlıq edərək dedi: Hörmətli İlham qardaşıma dəyərli fikirlərinə və töhfələrinə görə çox təşəkkür edirəm.

x x x

Sonra çıxış edən Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Nazarbayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbə, son illərdə əldə etdiyi nailiyyətlər, həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına ikiillik uğurlu sədrliyi münasibətilə Prezident İlham Əliyevi təbrik etdilər.

Daha sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının ”Türk Dövlətləri Təşkilatı”na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin ”Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, ”Türk dünyasına baxış - 2040” sənədinin qəbulu ilə bağlı Qərar, ”Türk dünyasının birliyinə verdiyi töhfələrə görə” Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar, Türk Dövlətləri Təşkilatında tərəfdaşlıq statusunun təsis edilməsi haqqında Qərar, Türk Dövlətləri Təşkilatının fəxri sədrinin hüquqları haqqında Qaydalara dair Qərar, Türk Şurası Baş katibinin fəaliyyət müddətinin uzadılması və Baş katibin müavinlərinin təyinatları haqqında Qərar, Türk Dövlətləri Təşkilatının İnvestisiya Fondunun yaradılmasının tamamlanması haqqında Qərar imzalandı.

Prezident İlham Əliyev noyabrın 12-də İstanbulda Qırğız Respublikasının Prezidenti Sadır Japarovla görüşüb. AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış ediblər.

Prezident İlham Əliyev: Sizi görməyim çox xoşdur. Bu, bizim ilk görüşümüzdür. Əminəm ki, belə görüşlər çox olacaq. Əlamətdar haldır ki, biz Türk Şurasının tədbiri çərçivəsində görüşürük və bu Şura təşkilata çevrilir. Əlbəttə, bu Zirvə görüşü bütün türk dünyası və bizim ölkələr üçün tarixi əhəmiyyət kəsb edəcək, həm də ölkələrimiz arasında ikitərəfli münasibətlər barədə söhbət etmək üçün yaxşı imkan yaradacaq. Biz həm siyasi, həm iqtisadi, humanitar sahələr ilə bağlı məsələlərin geniş spektri barədə qarşılıqlı aktiv fəaliyyətə ümid edirik və düşünürəm ki, bütün məsələlər spektri üzrə yaxşı potensial var. Artıq xarici işlər nazirləri səviyyəsində görüşlər olub və sizin xarici işlər naziri Azərbaycana səfər edib. Buna görə düşünürəm ki, bu gün biz ölkələrimizin, xalqlarımızın rifahı naminə əlaqələrimizin tamdəyərli olması və son nəticəyə yönəlməsi üçün ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etməsinə yaxşı təkan verəcəyik. Sizinlə görüşməyə bir daha çox şadam.

Prezident Sadır Japarov: Sağ olun. İlham Heydər oğlu, Sizi salamlayıram. Görüşümüzə, şəxsən tanış olmağımıza çox şadam. Qırğızıstan və Azərbaycan qardaş ölkələrdir. Qırğızıstanda qardaş Azərbaycan xalqının uğurlarına və nailiyyətlərinə həmişə şadıq. Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan dünya arenasında beynəlxalq mövqelərini xeyli möhkəmləndirib. Ölkələrimiz arasında münasibətlər tarixin, mədəniyyətin, dilin, mənəvi və dini dəyərlərin ortaq olmasından irəli gələn möhkəm dostluq və qardaşlıq tellərinə əsaslanır. Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında müasir dövlətlərarası münasibətlərin təməli beynəlxalq miqyaslı görkəmli şəxsiyyət, Sizin atanız Heydər Əliyev tərəfindən qoyulub. Qırğızıstanlılar Heydər Əliyevin xatirəsini ehtiramla yad edir və ölkələrimiz arasında çoxəsrlik dostluğun möhkəmlənməsinə onun tarixi töhfələrini qiymətləndirirlər.

Fürsətdən istifadə edib, bizə 40 min doza ”AstraZeneca” vaksini şəklində humanitar yardım göstərilməsinə görə Sizə təşəkkürümü bildirmək istərdim. Azərbaycan vaksin istehsalçısı olmadığı halda öz xüsusi ehtiyatlarından istifadə etməklə dəyərli jest edib. Bütün bunları dostluq və qardaşlıq təzahürü hesab edirəm. Yardıma görə Sizə bir daha təşəkkür edirəm.

Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin genişləndirilməsi, investisiyalar, energetika, nəqliyyat və digər sahələrdə, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin gücləndirilməsi məsələləri müzakirə olundu.

Noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının katibliyinin yeni binasının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev açılış mərasimində iştirak ediblər.

***Məlum olduğu kimi, qardaş Türkiyədə Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının növbəti toplantısı keçirilib və toplantıda iştirak edən ölkə başçılarının qərarı ilə Prezidenti İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilib. Təltiflə bağlı qərarı Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentləri imzalayıblar.***




# Ali təltiflərə layiq mütərəqqi siyasi xadim və Lider!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunub*

Qeyd edək ki, ölkə başçımız dünyanın bir çox ali mükafatlarına və təltiflərinə layiq görülüb və bu reallıq həm də daha bir gerçəkliyi isbat edir ki, İlham Əliyev faktoru özündə liderliyə xas olan bütün mühüm amilləri əks etdirməkdədir - qətiyyəti, iradəsi, humanizmi, xalqı tərəfindən sevilməsi, dünya birliyi tərəfindən güclü diplomat kimi dəyərləndirilməsi və daimi novatorluğu ilə bəşəriyyətə töhfələrini bəxş etməsi.

İlham Əliyev Türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial lider kimi şöhrət qazanıb

Söz yox ki, İlham Əliyev faktoru Böyük Türk dünyasındakı yeri və rolu ilə, eləcə də özəl siyasi keyfiyyətləri ilə seçilməkdədir. Daha dəqiq desək, Azərbaycan Prezidentinin Türk dünyasının ali mükafatı ilə təltif edilməsi Onun böyük şəxsiyyətinə, Türk dünyasında Liderliyinə, beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında olan yüksək nüfuzuna, ən əsası, Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən, bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbənin əldə olunmasındakı misilsiz xidmətlərinə verilən layiqli qiymətdir. Bu gün biz əminliklə vurğulaya bilərik ki, Prezident İlham Əliyev Türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial lider kimi şöhrət qazanıb və bu fakt uzun illərə söykənir.

Prezident İlham Əliyev bütün Türk dünyasının birlik arzusunun reallığa çevrilməsinə misilsiz töhfələr verən Lider olaraq tarix yazıb

Xatırlada bilərik ki, 2009-cu ilin oktyabrında türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündə Prezident İlham Əliyev vurğulamışdı: "Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti on illiklər ərzində dayandırılmışdır".

Artıq bu gün Zəngəzur regionunda Azərbaycan bayrağı dalğalanır. Şərqi Zəngəzur iqtisadi zonasının yaradılması da bu reallığın bariz təcəssümüdür. Eləcə də bu gün Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisədir. Prezident İlham Əliyev türkdilli dövlətlər arasında coğrafi bağlılığın bərpa edilməsinə, bütün Türk dünyasının birlik arzusunun reallığa çevrilməsinə misilsiz töhfələr verən Lider olaraq tarix yazıb.

Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolu

O da əbəs deyil ki, Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda Prezident İlham Əliyev böyük əmək sərf edib və Türk dünyası adından verilən bu ali mükafat bu zəhmətin qiymətləndirilməsi, minnətdarlıq hissinin ifadəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təşkilatın inkişafına, onun sıralarının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə və əlaqələrinin artmasına önəmli töhfələr verib.

Bu xüsusda xatırlatmaq olar ki, Azərbaycan 2019-2021-ci illərdə Türk Şurasına uğurla sədrlik edib, Prezident İlham Əliyev təşkilatın fəaliyyətinin gücləndirilməsinə, türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərib, Türk Şurasının digər mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə səmərəli əməkdaşlıq münasibətləri davam etdirilib, Ümumdünya Səhiyyə Təşkilatı ilə faydalı əməkdaşlıq çərçivəsi qurulub.

Azərbaycanın Türk Şurasına sədrliyi ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf edir - Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü bərpa etməsi və bu Zəfəri ilə Türk dünyası üçün əhəmiyyətli yeniliyə imza atıb, birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynayıb.

Zəngəzur dəhlizinin açılması ilə bu bağlılıq daha da artacaq

Belə ki, hazırda regionda həyata keçirilən beynəlxalq və regional layihələr türkdilli dövlətlər arasındakı möhkəm bağlılığa öz yeni töhfələrini verməkdədir. Söz yox ki, yaxın müddətdə Zəngəzur dəhlizinin açılması ilə bu bağlılıq daha da artacaq, Türk dünyasındakı əməkdaşlığa yeni bir nəfəs qatacaq, üzv ölkələr arasında yük və sərnişin daşımalarının həcminə müsbət məcrada təsir edəcək. Eyni zamanda, inteqrasiya prosesləri və mexanizmləri insanlarımız arasında da təmasların intensivləşməsinə səbəb olacaq ki, Türk dünyasının rabitə sıxlığı, qarşılıqlı münasibətlər tendensiyası daha da artırılacaq, dinamikləşəcək.

Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsinə daha bir mühüm səbəb Azərbaycanın Vətən Müharibəsindəki tarixi qələbəsidir

Beləliklə, biz əminliklə onu da vurğulaya bilərik ki, Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsinə daha bir mühüm səbəb Azərbaycan Respublikasının Vətən Müharibəsindəki tarixi qələbəsidir. Bu qələbənin əldə edilməsi üçün Prezident İlham Əliyevin güclü Azərbaycan dövlətinin yaradılması istiqamətində həyata keçirdiyi siyasətin əhəmiyyəti isə misilsizdir!

Dövlət başçımızın Azərbaycanın milli maraqlarının təmin edilməsi məqsədilə həyata keçirdiyi prinsipial, ardıcıl və qətiyyətli siyasəti dünya miqyasında, türkdilli xalqlar arasında və Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir və məhz Prezident İlham Əliyevin diplomatik səyləri və məharəti nəticəsində Azərbaycanın haqq səsi dünyaya çatdırıldı, erməni yalanları beynəlxalq miqyasda ifşa olundu, dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul etdilər, ayrı-ayrı dövlətlər, dünya səviyyəsində tanınmış ictimai-siyasi xadimlər, nüfuzlu şəxsiyyətlər Ermənistanın işğalçılıq siyasətini pislədilər və Azərbaycanın haqq işinə dəstək verdilər.

Azərbaycana qarşı yönəlmiş addımlarını neytrallaşdırdı, Ermənistanın izolyasiyasını, dalan dövlətə çevrilməsini əməli şəkildə təmin etmiş oldu!

Daha bir vacib məqam budur ki, İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanda güclü iqtisadi potensial formalaşdırılıb, güclü, müasir, qarşısında duran istənilən vəzifəni yerinə yetirməyi bacaran ordu yaradılıb və bu ordu mənfur düşməni, Türk dünyasına qarşı çıxış edən xain yağını yerində otuzdurub. Prezident İlham Əliyev Müzəffər Sərkərdə, Ali Baş Komandan kimi həm də diplomatiya elminin dərinliklərinə ən mükəmməl şəkildə sahib olan Liderdir. 44 günlük Vətən Müharibəsində Ermənistanı diz çökməyə, kapitulyasiyaya məcbur edən Lider kimi cənab İlham Əliyev bütün dünyada qalib Sərkərdə olaraq dəyərləndirilməkdədir. Çünki o diplomatiyası ilə yanaşı, həm də informasiya müharibəsində öz sözünü dedi. Vaxtilə diasporları ilə öyünən düşmənə, ona dəstək verən müəyyən Qərb dairələrinə sərrast və dəqiq cavablarını verdi, Azərbaycana qarşı yönəlmiş addımlarını neytrallaşdırdı, Ermənistanın izolyasiyasını, dalan dövlətə çevrilməsini əməli şəkildə təmin etmiş oldu.

Bu baxımdan, Türk dünyasının ali mükafatı ilə təltif edilən Prezident İlham Əliyev cənabları həm Azərbaycan xalqını yumruq kimi vahid ideya, amal ətrafında birləşdirən, xalq-iqtidar birliyinə nail olan, öz xalqının ən böyük arzularını reallığa çevirən mütərəqqi siyasətçi kimi, həm də Türk coğrafiyasının təməllərini möhkəmləndirən mütərəqqi şəxsiyyət olaraq tükənməz dəyər qazanıb.

***Rövşən RƏSULOV***

ANALİTİK-AKTUAL

***Müasir dünyamızda türkdilli dövlətlər arasında əməkdaşlıq daha güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsinə böyük imkanlar yaratmış oldu. Xatırladaq ki, təşkilat türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılıb.***




# Türkdilli ölkələr dünya miqyasında böyük gücə çevrilib

Naxçıvan Sazişinə əsasən, müəyyən edilmiş əsas fəaliyyət məqsədləri və vəzifələri, tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və s. məsələlərə önəm verilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti dövründə türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım edib. Naxçıvanda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, ”Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli ölkələrdə bütün imkanlar vardır - təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyatlar, insanların istedadı, mövcud olan yeni infrastruktur. Bütün bu imkanları biz əgər bir yerə toplasaq və bir yerdə cəmləşdirsək türkdilli ölkələr dünya miqyasında böyük gücə çevriləcəkdir. Bu gücə çevrilmək üçün biz səmərəli işləməliyik”. Əlbəttə ki, Türk Şurasının yaradılmasına dair qərarın, Naxçıvanda keçirilən Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün rəmzi əhəmiyyət daşıyır. Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə qəbul olunan mühüm sənədlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması və Naxçıvan bəyannaməsinin qəbul edilməsi əhəmiyyət kəsb edir. Naxçıvan sazişi ilə türkdilli dövlətlər arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradılmışdır.

## SİYASİ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ UĞURLA DAVAM ETMƏKDƏDİR

Bu gün həmin tarixdən 12 il ötür. Bu müddət ərizində TDƏŞ-in keçirilən görüşlərində türk dünyası üçün əhəmiyyət kəsb edən məsələlər müzakirə olunaraq qərarlar qəbul edilib. TDƏŞ-in birinci Zirvə Görüşü ”İqtisadi əməkdaşlıq” mövzusu adı altında 20-21 oktyabr 2011-ci il tarixlərində Almatı şəhərində baş tutmuşdur. Bu günə qədər keçirilən tədbirlər ”Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq”, ”Turizm sahəsində əməkdaşlıq” ”Media və informasiya sahəsində əməkdaşlıq” və s. mövzular altında keçirilmişdir. Bundan başqa, üzv dövlətlər arasında ticarət-iqtisadi münasibətləri inkişaf etdirmək məqsədilə nəqliyyat və gömrük sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verilmişdir. Xəzər dənizi və Qara dəniz limanları arasında əlaqələrin inkişafı və Xəzər dəniz keçidinin nizamlanması üzv dövlətlərin nəqliyyat və gömrük sahəsi üzrə görüşlərin gündəliyində xüsusi yer tutmuş və Samsun, Bakı və Aktau limanları arasında qardaş limanlar əlaqələrinin yaradılması istiqamətdə atılmış addımdır. Türk Şurası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə 2013-cü il tarixində Bakıda ilk dəfə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumu keçirilmişdir. Azərbaycanın təşkilat çərçivəsində siyasi və təhlükəsizlik məsələləri sahəsində əməkdaşlığı uğurla davam etməkdədir. Onu da vurğulayaq ki, Türk Şurası mötəbər beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndirib və hazırda BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarla səmərəli əməkdaşlığı mövcuddur.

2019-cu ildə Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü Naxçıvan Sazişinin onuncu ildönümünə təsadüf edirdi. TDƏŞ-in yeddinci Zirvə Görüşü 15 oktyabr 2019-cu il tarixində ”Kiçik və Orta Sahibkarlığın Dəstəklənməsi” mövzusu adı altında keçirildi. Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Şərq və Qərb sivilizasiyaları arasında mənəvi körpü rolunu oynamış türkdilli xalqlar tarix səhnəsində yenidən mütəşəkkil qüvvə kimi çıxış etməyə başlayıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə iqtisadi sahədə atılan addımlar, verilən qərarlar da əvvəlki sazişlər kimi dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. İlk dəfə olaraq, Özbəkistanın da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə tamhüquqlu üzvü kimi iştirakı, Budapeştdə Türk Şurasının Nümayəndəliyinin açılması türk dünyasının birliyinin daha da gücləndirilməsi istiqamətində atılan addımların davamı oldu. Naxçıvan sazişinin imzalanmasından keçən 12 il ərzində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

## TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA İKİTƏRƏFLİ VƏ ÇOXTƏRƏFLİ SƏVİYYƏLƏRDƏ DOSTLUQ VƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ MÖHKƏMLƏNDİRİLDİ

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə Şuraya sədrliyi öz üzərinə götürdü. ”Sizi əmin etmək istəyirəm, biz var gücümüzlə çalışacağıq ki, növbəti bir il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin”, - deyən Azərbaycan Prezidenti vurğulayıb ki, Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək”.

TDƏŞ-in Dövlət Başçıları Şurasının Fövqəladə Zirvə Görüşü 10 aprel 2020-ci il tarixində videokonfrans vasitəsilə ”COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq” mövzusunda keçirildi və Zirvə Görüşündə ”Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Fövqəladə Zirvə Görüşünün Bakı Bəyannaməsi” qəbul olundu. Tərəflər Dövlət Başçıları Şurası tərəfindən pandemiya ilə mübarizədə elmi, yenilikçi, texnoloji və tibbi potensialların tam səfərbər etmək təlimatlandırıldı. Fövqəladə Zirvə Görüşünün qərarlarının icrasını təmin etmək məqsədilə TDƏŞ-ə üzv və müşahidəçi ölkələrin səhiyyə, nəqliyyat, iqtisadiyyat, gömrük və miqrasiyadan məsul qurumların rəhbərlərinin videokonfrans vasitəsilə iclasları keçirildi. Eyni zamanda, sözügedən iclaslar zamanı qəbul edilmiş qərarların icrası ilə bağlı işlər aidiyyəti qurumlar arasında təsis olunmuş mexanizmlər çərçivəsində davam etdirilir.

TDƏŞ beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük əhəmiyyət verir. Təşkilat artıq İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, BMT, Ümumdünya Turizm Təşkilatı ilə əlaqələr qurmuşdur.

TDƏŞ hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabr tarixindən başlayaraq Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi olaraq bəyanatlar vermişdir. TDƏŞ baş katibi 2020-ci ilin 20 oktyabr tarixində Gəncə şəhərini ziyarət etmiş, Ermənistan tərəfindən Gəncənin raket atəşinə tutulması ilə bağlı Türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanatla çıxış etmişdir. Eyni zamanda, TDƏŞ nümayəndə heyəti işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarına da səfər edib.

## AZƏRBAYCANIN ZƏFƏRİ TÜRK DÜNYASINDA BİRLİYİN VƏ HƏMRƏYLİYİN DAHA DA GÜCLƏNDİRİLMƏSİNDƏ MÜHÜM ROL OYNADI

Azərbaycanın Türk Şurasına sədrliyi ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf etmiş, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü bərpa etmişdir. Müharibə dövründə türkdilli dövlətlərin xalqları da Azərbaycan xalqına dəstəyinin ardıcıl olaraq ifadə etmişlər. Birmənalı şəkildə demək olar ki, Azərbaycanın Zəfəri Türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynamışdır.

İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması layihələrinə Türk Şurasına üzv və müşahidəçi ölkələrdən olan şirkətlər və iş adamları maraq göstərir, bu xüsusda 2021-ci il sentyabrın 10-da Bakı şəhərində ”Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunun bərpasına və inkişafına həsr olunmuş” biznes forum keçirilmişdir. Türkdilli dövlətlər arasında media sahəsində əməkdaşlıq da olduqca önəmlidir, belə ki, Azərbaycan və Türkiyə arasında artıq media platforması yaradılmışdır. Cari ilin aprelin 10-da Bakıda keçirilmiş Türk Şurasının Mediadan məsul nazir və rəsmilərin iclası xüsusi əhəmiyyət kəsb edir. Həmin iclasda qəbul olunmuş qərarlara müvafiq olaraq, 22-24 oktyabr tarixlərində İstanbul şəhərində ”Dərin kökə sahib keçmiş, güclü gələcək” mövzusunda Türk Şurası Media Forumu təşkil olunmuşdur.

Onu da bildirək ki, 2021-ci ilin avqustun sonu sentyabrın əvvəlində təşkilata üzv və müşahidəçi dövlətlərdən 30-ya yaxın jurnalistin Bakı, Gəncə və Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə - Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan şəhərlərinə media turu təşkil olunmuşdur.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşü də əlbəttə ki, türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafında mühüm rol oynayacaq. Türkdilli dövlətləri birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı səmərəli fəaliyyət və əməkdaşlığının əsasını təşkil edir. TDƏŞ ölkələr arasında yaxınlaşmanın, inteqrasiyanın inkişaf etməsində ciddi rol oynayıb və bundan sonra töhfələrini verəcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# HƏRBİ EKSPERT: ”Əsas günahların bir hissəsi Rusiya sülhməramlılarının üzərinə düşür”




***“”Bu gün Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanatın imzalanmasının ildönümüdür. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Ermənistanın məğlubiyyətini qəbul edib". Bunu SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev söyləyib.***

Onun sözlərinə görə, noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Bəyanat imzalanıb: ”Bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Qarabağ münaqişəsi zonasında atəş və bütün hərbi əməliyyatlar dayandırılıb. Amma birgə bəyanatın imzalanmasından sonra keçən müddət ərzində Ermənistan artıq dəfələrlə birgə bəyanatın şərtlərini o cümlədən atəşkəsi pozub. Bu fəaliyyətlərin həyata keçirilməsində əsas günahların da bir hissəsi məhz Rusiya sülhməramlılarının üzərinə düşür. Hesab edirəm ki, Azərbaycan güc strukturları artıq bəyanat verməkdən real fəaliyyətlərə keçməlidirlər. Başqa sözlə desək bu fəaliyyətlərin baş verdikdən sonra bəyanat səsləndirməklə deyil, bu fəaliyyətləri əvvəlcədən önləmək üçün tədbirlər görülməsi vacibdir”.

***Gülyana***

***Hər kəs koronavirus xəstəliyi haqqında danışır və baxdığınız hər yerdə virus və ondan özünüzü necə qorumaq haqqında məlumat dərc olunur. Faktları bilmək özünüzü və sevdiklərinizi düzgün hazırlamaq və qorumaq üçün əsasdır. Təəssüf ki, çox sayda yanlış məlumatlar da var. Sağlamlıq böhranı zamanı dezinformasiya insanları bu xəstəliyə müdafiəsiz və həssas edir, həmçinin qorxu və təşviş yayır. Demək olar ki, 2 ildir pandemiya bizim həyatımızdadır və bununla mübarizə hələ də davam edir. Görəsən pandemiya insanlara nəyi öyrədib və onlardan nəyi alıb? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:***

# Pandemiya bizlərə nəyi verdi və nələri aldı?

## CƏMİYYƏTİN BAXIŞI - SORĞU



**Şəhər sakini Xanım Bayramova:** "Təbii ki, biz bu pandemiya şəraitində insanlardan və cəmiyyətdən təcrid olunduq. Bu da istər-istəməz psixoloji olaraq hər kəsə təsir etdi. İnsanlar bir-birini görə bilmirdi, bir məkanda oturub istirahət edə bilmirdi. Bu da pandemiyanın mənfi tərəfidir, müsbət tərəfi isə şəxsi gigiyenanı öyrətdi və natəmizliyin nələrə yol açacağını göstərdi".



**Şəhər sakini Aydın Kərimov:** "Doğrudur ki, bu xəstəlik bir çox insanların yaşam tərzini pozdu. Bu da özlüyündə ciddi problemlərə səbəb oldu. Bunun yaxşı tərəfinin olduğunu düşünmürəm. Lakin insanların ciddi dərəcədə zərər aldığı məlumdur. Neçə-neçə insan bu xəstəliyə yoluxub həyatını itirir və indi də itirməkdə davam edir. Bunun hansı yaxşı tərəfindən danışmaq olar? Bu barədə birmənalı olaraq pandemiyanın yaxşı yöndə olmadığını düşünürəm".

**Şəhər sakini Aytən Quliyeva:**



"Pandemiyada biz özümüz də bu xəstəliyi keçirmiş bir vətəndaş olaraq yaxınlarımızı itirdik. Əslində, ətrafda sosialın o qədər də əhəmiyyətli olmadığını, insanların öz ailəsi ilə daha sıx münasibətlərə məxsus olduğunu öyrətdi və sağlamlığın nə qədər önəmli olduğunu sübut etdi".

**Şəhər sakini Sahil Əhmədov:**



"Pandemiyanın ən yaxşı cəhəti insanlar daima evdə oturdu və evdəkilər bir-biriləri ilə daha yaxından ünsiyyətdə oldular. Sosiallaşma cəmiyyətdə o qədər çox idi ki, insanlar bir-birinə vaxt ayırmırdılar, hər kəs həmişə harasa tələsirdi. İşə, dərsə və yaxud başqa bir şeyə ayrılan zaman həddən artıq çox idi. Elə ailələr də var ki, valideynlər övladlarının yeni xarakter və xasiyyətlərini öyrəndi. Bu, pandemiyanın yaxşı tərəfi idi. Pis tərəfi isə təbii ki, insanlar həyatını itirdi, bu da özlüyündə həmin insanların yaxınlarına ağır zərbə vurdu".

**Şəhər sakini Bikə Poladova**: "Mən pandemiyanın bizə yaxşı təsirlərini görmürəm. İndi də klinikadan vaksin vurdurub gəlmişəm. Onu deyə bilərəm ki, bunun nə olduğunu dərk edə bilmirik. Bilinmir bu bir siyasətdir, yoxsa reallıq. Hər şeyi bizdən gizlətdiklərindən əminəm. Çünki bu xəstəliyin olduğuna inanmıram, sadəcə, insanlar ölürlər və səbəbi də başqa xəstəlik olur".





**Şəhər sakini Sadiq Kərimov:**



"Koronavirus böhranı haqqında unikal bir durum mövcud deyil. Bu, dünyanın müxtəlif ölkələrində mütəmadi olaraq baş verən və nisbətən az görünən böhranların, təbii fəlakətlərin daha qabarıq və daha kəskin versiyasıdır. Bunun bu qədər qabardılması çox gülməli haldır. Çünki dünyada nə qədər aclıqdan yemək və su qıtlığından gün ərzində minlərlə insan ölür. Bunu isə nəzərə alan yoxdur. Çünki onlar da bunun mif olduğunu bilirlər, sadəcə, insanların beyninə belə bir xəstəliyin var olduğunu yeridirlər".

**Şəhər sakini Sevda Süleymanova:** "Birincisi, pandemiya bizə özümüzü qorumağımızı, canımızın nə qədər dəyərli olduğunu öyrətdi. Bəzi insanlar bunun fərqində deyildilər. Bu xəstəliyin yaranmasının bir çox müsbət tərəfi var. Çünki hər şey onlayn sistemə çevrildi. İnsanlar, əslində, evdən də işlərini idarə edə biləcəklərini, işsiz insanlar ev şəraitində öz gəlir mənbələrini kəşf etdilər. Bu sistemin tələbələrə yaxşı təsir etmədiyi məlum məsələdir. Çünki onlar təhsil sistemindən təcrid olundular və onlayn şəkildə dərs keçdilər. Bu da özlüyündə onlara mənfi təsir etdi. Digər tərəfi isə çox insan sevdikləri həyatla vidalaşdı, məncə bundan ağır heç nə ola bilməz".



**Şəhər sakini Məmməd Məmmədov:** "Mən bu pandemiyada qardaşımı itirdim. Onun 74 yaşı var idi, lakin çox sağlam idi. O xəstəxanaya aparılandan 3 gün sonra mənə dedilər ki, qardaşınız cəngavər kimi insandı. Onun bədəni idmanla məşğul olmuş insanların bədəni ilə eyni gücə malikdir. Sadəcə, bir müddət sonra onun cansız bədənini bizə verdilər. Həqiqətən şoka düşdüm ki, bir insanı, həm də öz qardaşını hər gün görürsən və anidən o sənin həyatından necə gedə bilər? Onda anladım ki, insanın öz doğmasını, eyni qanı daşıdığı bir insanı itirmək çox çətin bir hadisədir. Bu xəstəlik çox canlar aldı, mənim qardaşım da onların içində oldu və bu halda pandemiyanın yaxşı tərəfindən söz gedə bilməz".

***Müəllif: Rüqəyya Orucova***

# Zəngəzur Azərbaycana necə verilir?



***Ermənistan Baş naziri Nikol Paşinyan Zəngəzurun hissə-hissə təhvil verildiyi haqda müxalifətin səsləndirdiyi iddialara cavab verib.***

Nikol Paşinyan əslində Zəngəzurun əvvəlki hakimiyyət tərəfindən "verildiyini" deyib. "Bu gün deyirlər ki, Zəngəzur hissə-hissə verilir. Gəlin baxaq, görək Zəngəzurun verilməsi formulu necədir: 2018-ci ildə Zəngəzurda uşaqların yalnız 4 faizi uşaq bağçasına getmək və məktəbəqədər təhsil almaq imkanında idi. Zəngəzurun təhvil verilməsi formulu məhz budur", - Paşinyan bildirib.

Bütün bunların Zəngəzurda yaşayışı çətinləşdirdiyini vurğulayan Paşinyan bu bölgədən insanların bir neçə ildir sistemli şəkildə köç etdiyinə diqqət çəkib. O deyib ki, Zəngəzurun boşalmasının qarşısını almaq üçün hökumət plan düşünüb: "Zəngəzurun yalnız bir icmasına uşaqların tam təhsil almasına şərait yaradılması üçün 9 milyard dram ayrıldı. Bu, İrəvan və Gümrü istisna olmaqla, Ermənistan tarixində əyalətlərə ayrılan ilk ən böyük vəsaitdir".

# Müstəqillik tarixinin ən böyük büdcəsi

Təhlil

***2022-ci il üzrə büdcə-vergi siyasəti çərçivəsində dövlətin əsas funksiyalarının, o cümlədən müdafiə və təhlükəsizlik, sosial təminat, səhiyyə, təhsil, dövlət borcu, prioritet dövlət proqramları və layihələri üzrə maliyyələşdirmənin davam etdirilməsi, əhalinin sosial rifahının qorunmasına yönəlmiş tədbirlərin və iqtisadi artımın davamlılığının dəstəklənməsi nəzərdə tutulur ki, bu da "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb. Yəni, parlamentin müzakirəsində olan 2022-ci ilin dövlət və icmal büdcələri büdcə sistemi haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq hazırlanıb.***

Gələn ilin büdcəsinin 30 illik müstəqillik tarixinin ən böyük büdcəsi olduğu günün reallığıdır və elə ən çox diqqəti çəkən məqam da məhz bundan ibarətdir. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, həm müharibə dövründə, həm də müharibədən sonrakı dövrdə çox böyük vəsaitlərin xərclənməsinə baxmayaraq, indi təqdim olunan büdcənin məbləği öz-özlüyündə Azərbaycan dövlətinin və iqtisadiyyatının qüdrətini, eləcə də dayanıqlığını təsdiq edir.

Təbii ki, büdcə siyasətinin ana xəttini makroiqtisadi sabitliyin dayanıqlığının təmin edilməsi, iqtisadi artımın və sahibkarlığın inkişafını dəstəkləyən, əhalinin həssas qruplarının, şəhid ailələrinin, müharibə veteranlarının sosial müdafiəsinin daha da gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyasının davam etdirilməsi, "Böyük qayıdışın" təmini və ölkənin müdafiə qabiliyyətinin artırılması kimi tədbirlər təşkil edəcəyi bəllidir. Bu siyasətin, Azərbaycan Prezidenti cənab İlham Əliyevin daim prioritet hədəf kimi diqqətdə saxladığı əhalinin sosial müdafiəsinin və yaşayış səviyyəsinin yüksəldilməsi, ölkəmizin təhlükəsizliyinin təmin edilməsi və iqtisadi inkişafın stimullaşdırılması üçün maliyyə təminatının yaradılmasına xidmət edəcəyi təkzibedilməzdir.

Heç şübhəsiz ki, işğaldan azad edilmiş ərazilərin bərpası və böyük qayıdışın büdcədə prioritetdə saxlanması, rayonların özünü maliyyələşdirməsi kimi müsbət tendensiyalar nəzərə alınır. Müharibədən sonra büdcənin tarazlı olması, büdcədə iqtisadi artımın stimullaşdırılması, əhalinin sosial müdafiəsi, əməkhaqlarının artırılması, hərbi qüdrətin möhkəmləndirilməsi kimi tədbirlərə kifayət qədər vəsaitin nəzərdə tutulması sözsüz ki, müsbət qiymətləndirilməlidir.

Qeyd etmək yerinə düşərdi ki, büdcə layihəsində vacib prioritetlərdən biri sosial layihələrdir, hansıki, cəmiyyətimiz tərəfindən müsbət qarşılanır. Diqqətə çatdıraq ki, sosial sahəyə ayrılan vəsaitin məbləği 13,5 faiz artırılacaq ki, bunun da əhalinin rifah halının yaxşılaşdırılmasına öz müsbət təsirini göstərəcəyi heç cür təkzib edilə bilməz. Nəzərə almaq lazımdır ki, sosial sahəyə ayrılan vəsaitin də 60 faizi əməkhaqlarının ödənilməsinə yönəldiləcək. Xatırladaq ki, sosial müavinətlərin, pensiyaların artırılması nəzərdə tutulub və bunun da sosialyönümlü olduğu bəlli məsələdir.

Büdcə ilə bağlı məsələlərlə əlaqədar olaraq Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayevə bu barədə fikirlərini bildirməsi üçün müraciət etdik. Komitə sədri məsələyə geniş şəkildə aydınlıq gətirdi:



"Gələn ilin büdcəsi, büdcə layihəsinin müzakirəsi əvvəlki illərdən çox fərqlidir. Çünki, biz gələn ilki büdcəni Zəfər bayramımızın qeyd olunduğu bu günlərdə müzakirə edirik və bu bizdə qürur doğurur. Əlbəttə ki, büdcə əhatəlidir, reallıq, həyati faktları özündə əks etdirir və gələn ilin büdcəsi əvvəlki illərin büdcəsindən xeyli miqdarda artıqdır, bildiyimiz kimi 30 milyard manata yaxın həcmdədir. Əvvəlki illərdə olduğu kimi, gələn ilin büdcəsi də sosialyönümlüdür. Artıq üç gündür büdcənin komitələrdə müzakirəsi gedir, millət vəkilləri, nazirlər, şirkət rəhbərləri, müvafiq orqanların rəhbərləri büdcə layihəsi ilə əlaqədar öz fikirlərini, qarşıda duran vəzifələri geniş şərh edirlər və bu ictimaiyyətə çatdırılır. Büdcə xərclərinin 46 faizindən çoxu sosialyönümlü xərclərdir. Bu, fərəhləndiricidir. Əlbəttə ki, 2022-ci ilin dövlət büdcəsində bütövlükdə, təhsil, səhiyyə, sosial müdafiə, sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti xərclərinin əvvəlki illə müqaisədə 7,1 faiz artımı büdcənin bir daha sosialyönümlü olduğunu göstərir.




Sözsüz ki, əvvəllər də səhiyyəyə, təhsilə, sosial müdafiəyə, sosial təminata büdcədə əhəmiyyətli yer ayrılırdı və bu büdcədə də bu amillər, bu vəzifələr dəqiq müəyyənləşdirilib və sosial yönümlü xərclər xeyli artırılıb. Əlbəttə ki, büdcədə ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin daha da gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərdə xidmət edən hərbi qulluqçuların vəzifə maaşlarına xüsusi əlavələrin edilməsi təqdirəlayiq haldır. Çünki, bizim müdafiə qüdrətimiz, milli təhlükəsizliyimiz nə qədər möhkəm olarsa, Azərbaycan xalqı bir o qədər firavan, qorxusuz həyat keçirə bilər. Həm də burada ərazilərdə xidmət edən hərbi qulluqçuların vəzifə maaşının artırılması da hərbçilərimizə göstərilən qayğının, diqqətin bir təzahürüdür və elə bilirəm belə də olmalıdır. Layihədə sosial xarakterli güzəştlər vasitəsi ilə əhaliyə vergi yükünün azaldılması və bu azaldılmaların daha çox Vətən müharibəsində şəhid olmuş şəxslərin ailə üzvlərinə və Azərbaycan Respublikasının azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda aparılan əməliyyat nəticəsində əlil olmuş hərbi qulluqçulara şamil edilməsi dövlətimizin bu kateqoriyadan olan insanlara diqqətindən irəli gəlir, əlbəttə ki, bu da bizim ürəyimizcədir.

Sözsüz ki, bu gün işğaldan azad olunmuş ərazilərin bərpası üçün büdcədən 2,2 milyard manat vəsait ayrılmışdır ki, bu da günün reallıqlarını əks etdirir və bilirik ki, artıq həminərazilərdə böyük, möhtəşəm, dinc quruculuq işləri aparılır və büdcədən də bunun üçün istənilən vəsait ayrılıb. Mən elə bilirəm ki, gələcəkdə əgər büdcəyə əlavələr daxil olarsa, həmin vəsait artırıla bilər. Çünki, bu gün işğaldan azad olunmuş torpaqların bərpası və tez bir zamanda həmin regionların sakinlərinin öz doğma ata-baba yurdlarına qayıtması dövlətin birinci dərəcəli vəzifəsi hesab olunur və cənab Prezident, hörmətli İlham Əliyev bütün tədbirlərdə, bütün görüşlərdə və çıxışlarında vətəndaşların öz yurdlarına qayıtmasını ən böyük vəzifə və dövlətin qarşısında duran bir öhdəlik kimi qiymətləndirir.

Büdcədə bir milyard manata yaxın vəsait aqrar sektorun inkişafına, aqrar sahəyə ayrılıb. Bu çox yaxşı haldır və işğaldan azad olunmuş torpaqların yenidən əkin dövriyyəsinə qaytarılması ilə əlaqədar həmin ərazilərdə meliorativ tədbirlərin həyata keçirilməsi, torpaqların yararlaşdırılması, həmin ərazilərdə su təminatının həyata keçirilməsi vacib olduğu üçün dövlət öz büdcəsindən bu vəsaitlərin ayrılmasını zəruri hesab edibdir. Bu gün kənd təsərrüfatı qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır və son illərdə bu sahədə ölkə rəhbərinin başçılığı ilə çox mühüm tədbirlər həyata keçirilmiş, bir çox proqramlar, layihələr qəbul edilmiş, onların aqrar sektora yönəldilməsi həm kənd təsərrüfatının inkişafına, həm də işsizliyin aradan qaldırılmasına, insanların maddi həyat şəraitinin daha da yaxşılaşdırılmasına imkan verir. Bu gün ölkədə kənd təsərrüfatının inkişafı zəruri bir sahə sayılır. Əlbəttə ki, bunun üçün təminatlar yaradılıb və hər il həyata keçirilən bir çox əsaslı tədbirlər bilavasitə bu sahənin inkişafı ilə əlaqədardır. İstər pambıqçılığın, istər taxılçılığın, istər hehvandarlığın, istərsə də digər tədbirlərin vaxtında görülməsi ölkədə aqrar sahənin inkişafına zəmin yaradıbdır. Əlbəttə ki, dövlət budcəsində də bu sahə ilə əlaqədar vəsaitlərin artırılması günün tələbindən irəli gəlir və elə bilirəm ki, təqdir olunmalıdır. Çünki, yeni torpaq sahələri əkin dövriyyəsinə daxil ediləcək, digər tərəfdən həmin regionlarda heyvandarlığın, arıçılığın, kənd təsərrüfatının digər sahələrinin inkişafı üçün zəruri tədbirlər həyata keçirilməlidir ki, bu da bilavasitə xərclər tələb edir.

Əlbəttə ki, büdcənin yüksək səviyyədə hazırlanması və onun qəbul olunması xalqın xoşbəxt həyatı, firavanlığı üçün vacibdir. Bütün burada vəzifələr, istiqamətlər müəyyən olunub və əlbəttə ki, müəyyən problemlər var ki, o problemlərin bu gün köklü surətdə aradan qaldırılması üçün külli miqdarda dövlət vəsaiti tələb olunur. Ancaq elə bilərəm ki, bizim hər birimiz bir vətəndaş kimi reallıqları düzgün qiymətləndirməliyik.

Digər tərəfdən, əgər 44 günlük müharibə, eləcə də pandemiyanın doğurduğu çətinliklər Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurmadısa və əhalinin böyük çətinliklərinə səbəb olmadısa, deməli Azərbaycan iqtisadiyyatı güclüdür və Azərbaycan büdcəsi öz istiqamətlərini düzgün müəyyən edibdir. Sözsüz, pandemiya ilə əlaqədar burada səhiyyə sahələrinə müəyyən vəsaitlərin artırılması günün tələbidir və bu reallıqlardan irəli gəlir. Bilirik ki, ölkədə son zamanlar 700-dən artıq xəstəxanalar tikilib, modul tipli xəstəxanalar quraşdırılıb və pandemiya dövründə ciddi çətinliklərin yaranmaması da, ciddi faktlar qarşısında qalmamağımız da, bilavasitə vaxtında həmin həstəxanaların yaradılması da bizə imkan verdi ki, bu xəstəliyi müəyyən qaydada aradan qaldıraq və qabaqlayıcı tədbirlər görülsün.

Tibbə, təhsilə ayrılan xərclərin artırılması sözsüz ki, həm insanların sağlamlığı üçün, həm də əhalinin savadlandırılması baxımından çox vacibdir. Həm də burada müəyyən məsələlər var. Məsələn, səhiyyə sahəsində, təhsil sahəsində, tələbə kreditlərinin verilməsinə ayrılan vəsaitlərdə də qənaətbəxşdir.



Digər tərəfdən, burada büdcədə dövlət xərcləri ilə oxuyan tələbələrin sayının artırılması da nəzərdə tutulur ki, bu tələbələrin oxuması bilavasitə dövlətin xərcləri hesabına təmin olunacaq.

Demək istəyirəm ki, bu büdcə layihəsi çox mükəmməl hazırlanıb və yenə deyirəm, bütün reallıqlar büdcədə öz əksini tapıb. Ona görə də millət vəkilləri büdcənin müzakirəsi zamanı bir çox məsələləri qaldırmaqla bərabər, həm də bu büdcəyə çox yüksək qiymət verdilər. Əlbəttə ki, bur millət vəkili kimi mən də büdcənin müzakirəsi zamanı öz fikirlərimi bildirmişəm, demişəm. Mən büdcədə şərh olunan müddaları müsbət qiymətləndirirəm və elə bilirəm ki, gələn ilin büdcəsi ölkənin sosial-iqtisadi, mədəni həyatının inkişafı üçün perspektivlər açacaq və Azərbaycan xalqı bu büdcədən lazımınca faydalanacaq."

Göründüyü kimi, gələn ilin büdcəsi öz əhatəliliyi baxımından da fərqlənir və bütün sahələri əhatə etməklə çox geniş miqyaslıdır. Bu isə o deməkdir ki, növbəti ilin büdcə layihəsi əvvəlkilərdən həqiqətən də daha mükəmməl hazırlanıb. Bütün reallıqların orada öz əksini tapması da bunu bir daha təsdiq edir. Sözsüz ki, belə mükəmməl hazırlanan büdcə layihəsindən də vətəndaşlarımızın, Azərbaycan vətəndaşlarının faydalanacağı zərrə qədər şübhə doğura bilməz. Çünki, görünən odur ki, növbəti ilin büdcəsi ölkəmizin inkişafı üçün geniş spektrda böyük perspektivlər vəd edir.

Əlbəttə ki, büdcə layihəsində sosial-iqtisadi məsələlərə yer verildiyi göz qabağındadır. Məhz bu baxımdan da növbəti ilin büdcə layihəsi ilə əlaqədar məsələlərə aydınlıq gətirməsi, bunu şərh etməsi üçün millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramova müraciət etdik. İqtisadçı-ekspert çox maraqlı məsələlərə diqqəti cəlb etdi və bir sıra məqamlara da aydınlıq gətirdi:

"2022-ci ilin büdcəsi Azərbaycanın müstəqillik tarixində ən böyük büdcədir. Beləki, büdcənin gəlir və xərclərində 2021-ci illə müqaisədə artımlar nəzər alınıb. Bütövlükdə 2022-ci ildə makroiqtisadi göstəricilərin 2021-ci ildə olduğu kimi artım tempi üzrə davam edəcəyi proqnozlaşdırılır. Nəzərə alaq ki, 2022-ci ildə ümumi daxili məhsulda 3,9 faiz artım proqnozlaşdırılır, eyni zamanda qeyri-neft sektorunda daha yüksək artımların olacağı gözlənilir. 2021-ci ili Azərbaycan iqtisadiyyatı 5 faiz böyümə ilə başa vuracaq. Bu baxımdan proqnozlar nikbindir.



Eyni zamanda büdcənin xərclər strukturuna diqqət yetirsək, 2022-ci ildə büdcə xərclərinin 46,5 faizi birbaşa sosial istiqamətə yönələcək. Bu isə ondan xəbər verir ki, büdcədən ayrılan hər 100 manatın 40 manatdan artığı məhz sosial sferaya xərclənəcək. Bu da təbii ki, 2022-ci ilin dövlət büdcəsinin sosialyönümlü olacağından xəbər verir.

Əlavə olaraq 1,4 milyard manatlıq sosial paket təsdiq olunacaq. Bu isə təbii ki, əməkhaqqı, pensiya və müavinatlarda artımların olacağından xəbər verir. İlkin qiymətləndirmələr görə, sosial paket orta hesabla 20-40 faiz intervalında artımlara gətirib çıxaracaq.




Eyni zamanda gələn il işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurulması da prioritetdir. Bu istiqamətdə 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Bütövlükdə 2021 və 2022-ci illərdə bərpa və yenidənqurma üçün 4,4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu isə ondan xəbər verir ki, bərpa və yenidənqurma intensiv şəkildə həyata keçirilir və növbəti illərdə də bu proses davam etdiriləcək.

Eyni zamanda, eləcə də 2022-ci ilin dövlət büdcəsindən fərqli istiqamətlər, o cümlədən təhsil, səhiyyə, müdafiə istiqamətinə ayrılan vəsaitlərin həcmində də artımların olacğı proqnozlaşdırılır. Praktik olaraq demək olar ki, büdcənin bütün maddələri üzrə biz artımların olacağını görəcəyik. Çünki, bir tərəfdən qeyri-neft sektoruna daxilolmalar yüksəkdir, artır. Digər tərəfdən də neftin dünya bazar qiyməti də büdcədə neft sektoru üçün nəzərdə tutulan cəlbedilmələrin, eləcə də transferlərin reallaşmasına imkan yaradır. Ona görə də 2022-ci ilin dövlət büdcəsi sosial, iqtisadi və digər istiqamətlərə ayrılan vəsaitlərin həcminin artırılması ilə yadda qalacaq.

Büdcədə neftin qiyməti 50 dollar nəzərdə tutulub. Bu da konservativ qiymətdir. Məqsəd də ondan ibarətdir ki, neftin dünya bazar qiymətinin yüksək olmasına baxmayaraq, hətta neft bazarında potensial dalğalanmalardan dövlət büdcəsini sığorta etmək mümkün olsun. Bu da büdcə gəlirlərinin reallığı baxımından vacibdir. O baxımdan Azərbaycan növbəti il müstəqillik tarixinin ən böyük büdcəsini formalaşdırıb icra edəcək."

Həqiqətən də 2022-ci ilin büdcə layihəsinə nəzər saldıqda əmin oluruq ki, proqnozlar nikbindir və gözləntilər də çox böyükdür. Layihələrin sosialyönümlü olması ilə yanaşı, əmək haqlarının, müavinətlərin, pensiaların və bir sıra ödənişlərin artımı həqiqətən də çox təqdirəlayiqdir. Əbəs yerə deyil ki, növbəti ilin büdcə layihsi cəmiyyətimizdə çox yüksək qarşılanır. Vətəndaşlar növbəti ildə rifah halının daha da yaxşılaşdırılacağına əmindirlər və digər tədbirlərin belə əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhlükəsizliyin təminatına hesablandığının fərqindədirlər.

Göründüyü kimi, işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurulması da prioritet olaraq qalır. Əslində, 30 ilə yaxın müddətdə yurd-yuvalarından didərgin düşmüş insanların öz ata-baba torpaqlarına qayıtması istiqamətində, "Böyük Qayıdış" istiqamətində görülməsi nəzərdə tutulan işlər və bunun büdcədə əhəmiyyətli dərəcədə nəzərə alınması da təsdiq edir ki, dövlətimiz üçün vətəndaş amili birinci dərəcəlidir. Yəni, bütün işlərdə, görülən və planlaşdırılan tədbirlərdə ilk növbədə Azərbaycan vətəndaşı nəzərə alınır. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə infrastrukturun yaradılması da, komunal təchizatın təmin edilməsi də, müxtəlif obyektlərin təməlinin qoyulması və Füzuli Beynəlxalq Hava Limanının timsalında bir çoxlarının istifadəyə verilməsi də Azərbaycan vətəndaşı, onun yaşayış şəraitinin yaxşılaşdırılması, təhlükəsizliyinin, rahatlığının təmin edilməsi üçündür ki, bunu hər kəs çox yaxşı başa düşür və qiymətləndirir.

Əslində, tarixi faktlar da təsdiq edir ki, qalib və ya məğlub olmasından asılı olmayaraq ölkələr müharibədən çıxdığı zaman ən azından iqtisadi böhranla üzləşməli olurlar, amma ölkəmizdə müharibədən dərhal sonra quruculuq işlərinə başlanılması, həmçinin dövlət büdcəsində sosialyönümlü tədbirlərin geniş miqyasda yer alması əvvələ onu göstərir ki, ölkəmiz həqiqətən də iqtisadi, siyasi cəhətdən çox qüdrətlidir. Yəni, qalib və ya məğlub tərəf olmasından asılı olmayaraq müharibənin ən azından maddi baxımdan itgisiz başa gəlmədiyi danılmazdır və bu fonda Azərbaycanın müharibə bitdikdən sonra dərhal, özü də öz gücü hesabına quruculuq işlərinə başlaması onun qüdrətindən xəbər verir və bunu bütün dünya çox yaxşı dərk edir. Digər tərəfdən isə ölkənin sosial yönümlü tədbirlərə üstünlük verməsi, büdcədə bunun üçün əhəmiyyətli dərəcədə yer ayılması ümumiyyətlə, diqqətdən yayınan deyil. İndi bütün dünya ictimaiyyəti fərqindədir ki, ən qabaqcıl ölkələr döyüşsüz, müharibəsiz belə pandemiyanın mənfi təzahürlərindən təsirləndikləri bir zamanda Azərbaycan bir də üstəlik müharibəni zəfərlə başa vurur, dərhal quruculuq işlərinə başlayır, üstəlik büdcə layihəsində sosial yönümlü tədbirlərə xüsusi yer ayırırsa, deməli, bu qalib ölkənin qüdrətinə, gücünə şübhə edilməz. Özü də sadalanan məqamların ardınca gələn ilin, 2022-ci ilin büdcəsinin Azərbaycanın müstəqillik tarixində ən böyük büdcəsi olması daha böyük əminlik yaradır və həqiqətən də tıqdirəlayiqdir.

**İnam Hacıyev**

# "Büdcə əvvəlki illərə nisbətən daha böyükdür"



"Baxmayaraq ki, Azərbaycan böyük bir problemin içərisindən çıxıb. Hansı ki, bu problemlər birincisi Qarabağ müharibəsi və ikincisi isə koronavirus pandemiyasıdır. Bununla belə büdcəni sabit saxlamaq mümkün oldu". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə bildirib. Onun sözlərinə görə, biznes sektorunun inkişafı neftdən gələn gəlirlərin düzgün bölüşdürülməsi, sahibkarlığın inkişafına dövlətin verdiyi dəstəklə bağlıdır: "Düzdür pandemiya hələ davam edir və bundan iqtisadiyyat, o cümlədən, insanların güzəranı müəyyən qədər zərər çəkir ancaq bu problemdən Azərbaycan digər ölkələrə nisbətən az zərərlə çıxır. Büdcə əvvəlki illərə nisbətən daha böyükdür. İlk növbədə sosial paket böyük həcmdə vəsaiti özündə ehtiva edir. Burada əmək haqlarının, pensiyaların, təqaüdlərin artırılması, regionların inkişafı ilə bağlı layihələrin maddi maliyyələşdirilməsi nəzərdə tutulur. Bir sözlə həm iqtisadiyyatın inkişafı, həm də vətəndaşların sosial problemlərini həll edən məsələlərdir. Eyni zamanda işğaldan azad olunan torpaqların minalardan təmizlənməsi, kommunikasiyaların qurulması və tamamilə yerlə yeksan edilmiş şəhər və kəndlərinin bərpası məsələsi durur. Bu çox böyük vaxt tələb edən bir məsələdir. Amma bununla belə ilkin addımlar atılmış və 2021-ci ilin sonu - 2022-ci ilin əvvəli Zəngilanın 3 kəndinə məcburi köçkünlərin qaytarılması gözlənilir. Füzuli aeroportu fəaliyyət başlayıb, həmçinin Füzuli-Şuşa yolu artıq istifadədədir. Füzuli və Ağdam şəhərləri tamamilə yenidən qurulmağa başlayıb.

Göründüyü kimi bu istiqamətlərdə böyük işlər görülür. Həmçinin vətən müharibəsində şəhid olan şəhid ailələrinin, yaralıların və iştirakçıların problemlərinin həlli ilə bağlı böyük bir paket nəzərdə tutulmuşdur. Bütün bunlar hamısı iqtisadiyyatın düzgün qurulması, sosial istiqamətlərin düzgün seçilməsi nəticəsində mümkün olur. Düzdür hələ müəyyən problemlər də var. Müzakirələrdə çıxış edən həmkarlarım həmin bu problemlərə diqqət yönəldirlər. Problemlərlə bağlı hökumətin müəyyən addımlar atmasını diqqətə çatdırdılar. Hesab edirəm ki, parlament iclasında daha geniş müzakirələr olacaq və biz gələn ilə optimal, günün tələblərinə cavab verən, insanların yaşayışını yaxşılaşdıran bir büdcə əldə edəcəyik. Müzakirələrdə qiymətlərin müəyyən qədər qalxması məsələsinə də toxunulub. Bu bir tərəfdən dünya bazarında ərzaq mallarının, müəyyən texnologiyaların bahalaşması ilə əlaqədardır. Digər tərəfdən isə Azərbaycanın öz iqtisadiyyatında da diqqət edilməsi gərəkən sahələrlə bağlıdır. Belə düşünülür ki, məcburi köçkünlər öz torpaqlarına qayıtdıqdan sonra əlavə iş yerlərinin yaradılması, ərzaq və məhsul bolluğunun artmasına, büdcəyə daha çox gəlirin daxil olmasına səbəb olacaqdır".

**Abutel İlhamqızı**

***COVID-19 epidemiyasından sonra "heç nə əvvəlki kimi olmayacaq" ifadələri qəribə görünsə də, bir çox vərdişlərimizin başqa vərdişlərlə əvəz olunduğunu və dəyişdiyini görə bilərik. Bu vəziyyət nəzərə alındıqda çox şeyin qalıcı olaraq dəyişəcəyinə dair bu ifadələrin şişirdilmədiyi anlaşılacaq. Keçmişə nəzər saldıqda çoxlu epidemiya nümunələri görürük. Məsələn, 19-cu əsrdə bəşəriyyəti məhv edən vəba epidemiyası və 20-ci əsrdə İspan qripi kimi dünyada böyük dəyişikliklər və transformasiyalar baş verdi. Gündəlik həyatın böyük dəyişikliklərə məruz qaldığı bu dövrdə hər sahədə bir sıra yeni ehtiyaclar meydana çıxmışdır.***





# Koronavirus həyatımızda nələri dəyişdi?



Çox da uzaq olmayan gələcəkdə universitetlər, elm adamları, peşəkar təşkilatlar və bir çox yerli özünüidarəetmə orqanları insanların, şəhərlərin və ölkələrin gələcəyi ilə bağlı hərtərəfli təhlillər aparacaq, qlobal böhran zamanı ölkələrdə özünü göstərəcək qalıcı təsirlər üzərində araşdırmalar aparılacaq. Ancaq indi də yaxın gələcəkdə danışacağımız bəzi əsas məsələlər haqqında danışa bilərik:

Texnologiyanın istifadəsi və onun daha da geniş vüsət alması,
Rəqəmsallaşma,
İş həyatı,
Süni intellekt,
Nəqliyyat üstünlükləri,
Təhsil formaları və s.

Bu qlobal epidemiyadan sonra sosial davranışların demək olar ki, köklü şəkildə dəyişəcəyini bildirən mütəxəssislər, fiziki məsafənin və gigiyena qaydalarına riayət etmənin əhəmiyyətinin təsirini davam etdirəcəyini bildirirlər. Bir çox mütəxəssis bu prosesdə gündəmə gələn rəqəmsallaşmanın da adi hala çevriləcəyini deyir.

## Sosial münasibətlər tənzimlənəcək

Xüsusilə insan və təbiət arasındakı ahəngdar əlaqəyə baxarkən insan mərkəzli yanaşmaların təsiri ilə formalaşan bir çox perspektivlərdən xilas olmağımız lazım olduğunu vurğulayan ekspertlər bu epidemiyanın bəşəriyyəti bir növ təcrid prosesinə sürüklədiyini bildiriblər. Belə bir dəyişikliyə paralel olaraq bildirirlər ki, bu dövrün yaratdığı vəziyyət həyatın bütün sahələrində ictimai münasibətlərin yenidən qurulmasını da özü ilə gətirəcək.

## Rəqəmsallaşdırma daha da yayılacaq

Bu dövrdən əvvəl rəqəmsallaşma həyatımızın ən vacib hissələrindən biri idi. Ancaq epidemiya prosesində evdən işləməyin və elektron ticarətin əhəmiyyəti nəticəsində bu proses xeyli sürətləndi. Artıq epidemiya zamanı vərdiş halına gələn rəqəmsal iş və istehlak epidemiyadan sonra bir çox sektorun seçimi olacaq və əhəmiyyətli dərəcədə davam edəcək.

## Səhiyyəyə investisiyalar artacaq

Epidemiyadan sonra yeni iqtisadi sahələrin özünü göstərəcəyini düşünmək absurd olmaz. Xüsusilə, iqtisadçılar tez-tez səhiyyə sahələrinə investisiyaların daha çox artacağını, xəstəliklərlə mübarizə aparan avadanlıqların, nəzarət sistemlərinin və s. kimi daha çox süni intellektə yönəlmiş hər cür biznes sahələrinə maraq və tələbatın artacağını proqnozlaşdırırlar.

Alış-veriş çılğınlığı azalacaq

Bu dövrdə insanların düşüncə və davranışındakı dəyişikliyin onların istehlak vərdişlərinə əhəmiyyətli dərəcədə təsir edəcəyini açıq şəkildə görə bilərik. Müxtəlif ölkələrdə aparılan araşdırmalar göstərir ki, insanlar karantin şəraitinin yaratdığı gündəlik vərdişlər və məhdudiyyətlər səbəbindən özlərini inkişaf etdirir, daha sadəlövh və daha insani tərəflərini kəşf etməyə başlayırlar. Karantin müddətində insanlar yeni qərarlar qəbul etməyə başlayırlar. Bu qərarlar arasında ən çox diqqət çəkəni alış-veriş impulslarının məhdudlaşdırılması və dəbdəbəli məhsulların lazımsız olması düşüncəsidir.



## COVİD 19-dan sonra təhsil prosesi

Virusdan sonra texnologiyanın təhsildə məqsəd deyil, dəstəkləyici və inkişaf etdirici bir vasitə kimi daha intensiv istifadəsi müşahidə olunur. Kursun məzmununda mücərrəddən konkretə keçid texnologiyanı yenidən istifadə etməklə daha böyük sürət qazanacaq. Süni intellekt texnologiyası ilə abstrakt məzmun konkretləşəcək və tədrisdə istifadə olunacaq.

Digər mühüm məsələ isə öyrənmə tərzi və sürəti baxımından özünü göstərəcək. Süni intellekt və texnologiya ilə yanaşı, şagirdin öyrənmə potensialı və forması, uğurlu və uğursuz mövzu və üsulları və s. Diaqnozlar qoyulmaqla, öyrənmənin məzmunu və prosesi bu tapıntılara uyğun tərtib edilməyə başlayacaq.

SİA koronavirusun gətirdiyi dividentlər, "Koronavirus nələri ortaya çıxardı?", "Koronavirusdan sonrakı həyatımız necə olacaq?" mövzusunda araşdırma apararaq deputat, sosioloq, psixoloq və təhsil ekspertlərinin fikirlərini öyrənib.



Koronavirusdan sonra insanlar internetin "Zoom" və "Teams" kimi canlı yayım platformaları ilə daha yaxından tanış oldu, yeni toy və yas modeli yarandı, ailələrin bir-biri ilə daha çox zaman keçirmək imkanı oldu və s.

**Məsələ ilə bağlı deputat Azər Badamov** öz fikirlərini bu cür ifadə edib: "Yeni növ koronavirus infeksiyası insanların həyatına təhlükə və müəyyən çətinliklər yaratsa da özü ilə gətirdiyi yeniliklərlə də zəngin oldu. Düzdür, tətbiq olunmuş məhdudiyyətlərlə bağlı insanlar bir-birilərindən uzaq düşdülər, canlı təmaslar minimuma endi. Bu həm də yeni texnologiyalardan istifadəsini aktuallaşdırdı.

Biz, yeni texnologiyaların müsbət və mənfi tərəflərinin olduğunu bilirik. Amma müsbət tərəfləri mənfilərdən çox olduğuna görə biz müsbətin üzərində fikrimizi formalaşdıracağıq. Yeni texnologiyalardan istifadə olunması sübut etdi ki, pandemiya ilə bağlı qapanmalar edilsə də iş prosesini davam etdirmək mümkündür. Məhz pandemiyanın həyatımıza gəlişi bir çox sahələrdə xidmətlərin elektronlaşdırılmasını sürətləndirdi. Məsələn elektron ticarətin inkişafı, iaşə xidmətlərində internetin üzərində sifarişlərin qəbul edilməsi və ünvanlara çatdırılması aktuallaşdı. Təhsildə distant üsulun inkişafı oldu.

Onu da qeyd etmək lazımdır ki, distant təhsilin keyfiyyəti heç də əyani təhsilin keyfiyyəti ilə heç cürə eyniləşdirmək olmaz. Amma "Teams" proqramı vasitəsilə tədrisin davam etdirilməsi canlı təmas yaratmadan məsafədən təhsil verməni aktuallaşdırdı və tədrisdə fasilənin yaranmasının qarşısı alınmış oldu. Dövlət idarələrində və ictimai həyatda bir çox tədbirlərin "Zoom" proqramı vasitəsilə təşkil olunması hətta dövlət başçıları səviyyəsində beynəlxalq tədbirlərin də videoformatlarda keçirilməsini aktuallaşdırdı.

ARAŞDIRMA

Ardı Səh. 11

# Koronavirus həyatımızda nələri dəyişdi?



**Əvvəli-Səh-10**



Hesab edirəm ki, yas mərasimi dünyasını dəyişmiş insanın dəfni ilə başa çatmalıdır. Çünki, dünyasını dəyişmiş insanın dəfnindən sonra təşkil olunan bütün məclislər həm məclisləri təşkil edən ev sahibi üçün maliyyə çətinliyi yaşadır, həm də yas mərasimlərə gələn insanlar üçün vaxt itkisini gətirir. İnsanlar yas mərasimlərində iştirak etmək üçün şəhərdən rayonlara və ya əksinə getməklə günlərlə vaxtını boş yerə itirmiş olurlar. Halbuki bu müddətdə həmin şəxslər səmərəli bir fəaliyyətlə məşğul ola bilərlər. Toy mərasimlərinə də hər salam verən dəvət olunmamalıdır. Toyları özünəyaxın 150 nəfərlə keçirmək həm toy sahibi üçün, həm də toylarda iştirak edənlər üçün rahatlıq gətirir. Xüsusilə qeyd etmək istəyirəm ki, toy və yas mərasimləri ilə bağlı tətbiq olunmuş məhdudiyyətləri postpandemiya dövründə də el adəti kimi qüvvədə saxlasaq daha yaxşı olardı. Çünki, biz, yaxşı adətləri formalaşdırıb rahat həyatımıza davam etməliyik.

Beləliklə qeyd etmək istəyirəm ki, pandemiyanın həyatımıza gətirdiyi mənfi fəsadlarla yanaşı müsbət reallıqları da çoxdur və biz həmin müsbət tərəfləri qoruyub inkişaf etdirməliyik".

**Təhsil eksperti Kamran Əsədov:** "İlk növbədə qeyd edim ki, Müəllim və tələbənin eyni məkanda olma məcburiliyini ortadan qaldıran sistem Distant təhsil sistemidir. Bu təhsil sistemi inkişaf edən texnologiya ilə birlikdə müvəffəqiyyət nisbəti hər keçən gün artan bir təhsil sistemidir. Məsafəli təhsil tələbə ilə müəllimin fiziki olaraq eyni bir mühitdə olmamasını təşkil edən texnologiyadır. Bu sistem təhsil texnologiyası tərəfindən araşdırılan bir fenomendir və bu sahədə təhsil elminə verdiyi ən böyük töhfədir. Bir çox tələbələr işin çoxluğu, ailə öhdəlikləri və ya digər təzyiqlər səbəbindən beynəlxalq təhsil üçün xaricə getməsi mümkün deyil. Ancaq distant təhsil bütün bu mümkünsüzlüklərin üstündən xətt çəkir.



Distant təhsildə hər kəs vaxt itirmədən xarici universitetlərdə oxuya bilər. Burada tələbənin sərbəst öyrənmə prinsipi vardır. Təhsil sahəsi elə qurulub ki, tələbə müəllimdən vaxt və ya məsafə ilə ayrılsa da, onlar istədiyi vaxt telekommunikasiya vasitələri ilə əlaqə saxlaya bilərlər. Bu baxımdan müxtəlif məqsədlərlə istənilən təhsil proqramı sahəsində həyata keçirilə bilən distant təhsil sisteminin funksiyaları da genişdir.

2009-cu ildə qəbul edilmiş Təhsil haqqında qanunda ali təhsil alma formalarından biri kimi distant təhsil qəbul edilsə də indiyə qədər Azərbaycanda distant təhsil mexanizmi müəyyən olunmadığı üçün bu formada xarici ölkələrdə təhsil almış şəxslərin diplomları tanınmır. Belə ki, hal-hazırda Azərbaycanda distant təhsilin mexanizmi işlənib hazırlanmadığından onu təhsilin bir forması kimi qəbul etmək olmaz.

Vacib bir məqamı qeyd edim ki, distant təhsil daha çox aşağıdakı kateqoriya insanları cəlb edir:

o İşdə və ya evdə başı qarışıq olanları və dərslərə getmək və mühazirələri dinləmək imkanları olmayan şəxsləri;

o İxtisasını artırmaq, bacarıqlarını inkişaf etdirmək və karyeradan ayrılmadan yeni biliklər əldə etmək istəyənləri;

o Həyatda hər şeyə nail olmaq və peşəkar əlaqələri və dünya görüşünü genişləndirmək imkanlarından istifadə etmək istəyənləri, çünki distant təhsil sayəsində eyni zamanda bir neçə kursda oxumaq olar.

Beynəlxalq statistikaya görə, distant təhsildə "tələbələrin" əksəriyyəti yaşı 25-i ötmüş, işləyən və işdən ayrılmadan peşəkar biliklərini genişləndirmək istəyən şəxslərdir. Bununla belə, distant təhsil forması hamı üçün münasibdir. Bu, illər ötdükcə daha çox inkişaf edəcək müasir təhsil formasıdır. Amma istənilən təhsil forması kimi distant təhsilin də həm müsbət, həm də mənfi cəhətləri var. Müsbət cəhətləri

**1.** Distant təhsil proqramları ənənəvi sistem üzrə aparılan analoji təhsil kurslarından xeyli ucuzdur. Təhsil müəssisələri icarə haqqına, elektrik enerjisinə və bahalı texnikaya qənaət edir, çünki təhsil üçün ayrıca otaqlar və kompüterlər tələb olunmur. Bundan əlavə, vaxtın çox hissəsini tələbələr müstəqil şəkildə məşğul olurlar və deməli, müəllimlər eyni zamanda daha çox tələbəni öyrədə bilərlər və bunun da sayəsində distant təhsilin qiyməti münasib olur.

**2.** Distant təhsil ümumiyyətlə hər hansı təhsil almaq imkanları olmayan şəhər və ölkələr üçün əvəzedilməzdir. Bu, təhsili hamı üçün əlçatan edir.

**3**. Distant təhsil insanın utancaqlıq və auditoriya qarşısında çıxış etmək fobiyası kimi kommunikasiya keyfiyyətləri ilə bağlı psixoloji maneələri dəf etməyə imkan verir.

**4.** Distant təhsil mobildir və deməli, tələbənin daim aktual məsələlərə çıxışı olur. Bunun üçün sadəcə internet lazımdır.

**5.** Hesab olunur ki, distant təhsil vaxtının çoxunu işdə, uşaqlarla və ya ailəsi ilə keçirən insanlar üçün yeni biliklər və bacarıqlar əldə etmək üçün yeganə mümkün vasitədir. Hər hansı şəxs işini itirmək qorxusu olmadan və işdən ayrılmadan ixtisasını artırmaq və ya yeni biliklər əldə etmək imkanı əldə edir.

Hesab edirəm ki, distant təhsil şübhəsiz ki, qarşısına məqsəd qoyanlar və bunun ona nə üçün lazım olduğunu anlayanlar üçün səmərəli təhsil formasıdır. Belə təhsil özünütəhsil prosesini planlaşdırmağı və ona nəzarət intizamını tərbiyə edir. İstənilən təhsil forması kimi bu da qarşılıqlı prosesdir və tələbə ilə canlı ünsiyyət olmadıqda "pedaqoq" amili çox vacib olur".

Mənfi cəhətləri haqqında deyim ki,

**1.** Tələbələrin təhsil səviyyəsində və peşəkar təcrübəsində fərdi fərqləri nəzərə almağa imkan vermir.

**2.** Təlim və imtahan telekonfranslarının təşkili üçün müxtəlif ölkələrin telefon xətlərinin keçiricilik qabiliyyəti kifayət etməyə bilər.

**3.** Tələbələr tərəfindən mənfi qarşılana biləcək daha bir cəhət distant təhsil sistemində müəllim və tələbə arasında canlı ünsiyyətin itməsidir.

**4.** Təlim kursları kifayət qədər interaktiv olmur.

**5.** Distant təhsilin yekunlarına görə verilən diplom və ya sertifikat hələlik keyfiyyətli təhsilin göstəricisi kimi qəbul olunmur.

**6.** Asan əldə edildiyi üçün adətən distant təhsil səhvən müəyyən bir xarici təhsil almaq imkanı kimi başa düşülür. Göstərilən mənfi cəhətlərinə baxmayaraq, distant təhsil inkişaf etməkdə davam edəcək və zaman keçdikcə digər təhsil formaları arasında layiqli yerini tutacaq. Məsələ yalnız tələbələrin ondan düzgün və səmərəli istifadə etməsindədir.

**Psixoloq Zeynəb Eyyubova:** "Pandemiya dövrünə görə bir çox təbəqədən olan insanlar və bir çox əzizlərimiz var ki, çox əziyyət çəkirlər. Bu, istər tələbələr, istər müəllimlər, istər həkimlər, istərsə də jurnalistlər olsun.



Ümumiyyətlə, mənim özəlliyim reallığı deməkdir. Bəli, çətin dövr yaşayırıq. Heç vaxt görmədiyimiz bir şeydir. Yaşımızda tarix boyu biz belə bir şey görməmişdik. Amma sizə psixoloq kimi bir tövsiyəm var ki, özünüzü qoruyun, deyilən şərtlərə əməl edin, maska taxın, spirtdən istifadə edin, marketə girəndə mümkün qədər əlcək taxın. Yəni, özünüzü qoruyun.

Depressiyada olan insanlar var. Panikatak da daha çox yayılıb. Üstəlik əvvəldən panikatak olan insanlar indi daha betər panikatak yaşayırlar. Mütləq psixoloq dəstək və yardım alın. Evdə nəfəs hərəkətləri edin, hər gün gündə iki dəfə dərindən nəfəs hərəkətləri edin. Bizim problemimizdən biri nəfəsimizi düzgün idarə etməməyimizdir. Evdə olduqda çox kitab oxuyun, kinolara baxın, maraqlı verilişlərə baxın. Sizi daim neqativə kökləyəcək xəbərlərdən uzaq olun. Bu qədər adam öldü, bu qədər adam tutuldu. Bunlardan özünüzü kənar edin. Yeni bir səhifə açın. Artıq indidən pandemiyadan sonra olan planlarınızı qurun. Tələbələrimiz, universitetə hazırlaşanlar üçün çox çətindir və dəqiq ki bu keçəcək bir perioddur".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Şəhdlik zirvəsinə ucalan qəhrəmanlar!

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları Şəhid ailələrini ziyarət edib





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 12 noyabr 2021- ci il tarixdə Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Çaylı kəndindən olan şəhid Məmişli Sahil Ağaverdi oğlunun, Zəhmətabad kəndindən olan şəhid Qasımzadə Nicat Höccət oğlunun və Biləsuvar şəhərindən olan şəhid Əzizli Elnur Şahin oğlunun ildönümləri ilə əlaqədar olaraq ailələri ziyarət ediblər. Daha sonra şəhidlərin məzarları ziyarət edilib və dərin ehtiramla yad edilərək üzərlərinə tər gül dəstələri düzüblər.

Allah rəhmət eləsin!

*Rəfiqə*

## Qəbələdə şəhid Bəhruz Abuşovun ildönümü qeyd olunub




Vətən müharibəsində qəhrəmancasına döyüşmüş Abuşov Bəhruz Zabit oğlunun şəhidlik zirvəsinə ucaldığı gündən bir il keçir. Bu münasibətlə rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhidin təhsil aldığı məktəbin kollektivi, döyüş yoldaşları tərəfindən Bəhruz Abışovun məzarı ziyarət edilərək xatirəsi ehtiramla anılmış, məzarı üzərinə gül dəstələri düzülmüş və ruhuna dualar oxunmuşdur. Həmçinin, şəhidin xatirəsinə Nohurqışlaq kəndində ucaldılmış bulaq kompleksinin





açılışı olmuşdur. Tədbir iştirakçıları şəhidin ailəsini evlərində ziyarət etmişlər. Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya, sosial təminatlarının yaxşılaşdırılması istiqamətində görülmüş işlər və aparılan islahatlara görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.

*Rəfiqə*

## Qobustan rayonunda şəhid Həsən Quliyevin anım mərasimi keçirilib







Qobustan rayon icra hakimiyyətinin rəhbərliyi, YAP Qobustan rayon təşkilatının, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din xadimləri, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Qobustan rayonu Sündü kəndindən Quliyev Həsən Yalçın oğlunun şəhadətinin ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək əziz xatirəsini böyük ehtiramla yad ediblər. Şəhid Quliyev Həsən ölmündən sonra ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə " Vətən uğrunda" ,"Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib və nümunəvi gənclər kimi cəmiyyətin rəğbətini qazandığını vurğulayıblar. Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*R.Kamalqızı*

## Zaqatalada şəhid Ehtiram Əhmədovun xatirəsi anılıb







YAP Zaqatala rayon təşkilatının rəhbərliyi, Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, Zaqatala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din xadimləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Yeni Suvagil kənd sakini Əhmədov Ehtiram Teyyub oğlunun ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək əziz xatirələrini böyük ehtiramla yad ediblər. Daha sonra şəhidlərimizin xatirəsinə inşa edilmiş bulaq-abidə kompleksinin açılışı olub. Sonda ziyarətçilər Şəhid ailəsini ziyarət edib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib. Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Şəhidlərimizin ruhları şad, məkanları cənnət olsun.

*Zümrüd BAYRAMOVA*

# Antimilli şəbəkənin buyruq qulları - AXCP-"Milli Şura"-"beşinci kalon"...



*Göz eyni nöqtəyə baxmaqdan, dil eyni yalanı danışmaqdan, qulaq eyni sözləri eşitməkdən yoruldu. Amma dağıdıcı müxalifət yorulmadı. Onun tuği-lənət olub bu millətin boğazına keçmiş dağıdıcı "qanadın" satqınlar "sülaləsi" - Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Xədicə İsmayıl, Sevinc Osmanqızı, Leyla Yunus, Qənimət Zahid, Vidadi İskəndərli, Arif Məmmədov və bu kimi mənəviyyatsız, əxlaqsız erməni yalaqları 28 ildən bəridir ətrafa yalan, böhtan, xəyanət püskürür, xalqı xırda bir cığırdan böyük el yoluna çevrilmiş müstəqillik, firavanlıq və haqq yolundan sapdırmağa çalışırlar. Bu naqislərin dərdi, azarı nədir? Umacaqları nədir?*

## *Və ya milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri iflasa məhkumdur*

Doğrudan da, bu rəzillər hələ də anlamırlar ki, artıq xalq onları çoxdan tarixin zibilliklərinə atıb. Dialektikanın belə bir qanunu var: hər şey əvvəl-axır başlanğıc nöqtəsinə qayıdır. Ancaq nə yazıq ki, vaxtı ilə onların "siyasi meydanı" olan nə həmin çayxanalar qalıb, nə də onları dinləyəcək işsiz-gücsüz adamlar. 2003-cü ildən onların yerini xalq göstərdi - zibilxanalar!

Onu da vurğulamaq istərdim ki, bu gün onların "qatarı" çoxdan gedib. Fizikanın qanununda olduğu kimi: nöqtələr arasındakı məsafə artdıqca, biri kiçilib yox olur. Yəni yox olduğunuz halda, nə abırsızlıqdır sosial şəbəkələrdə edirsiniz? Çünki bu....

### Antimilli ünsürlərin siyasi "anatomiyası"....

Siyasi leksikona "söyüş diplomatiyası" kimi üzdəniraq "məfhum" gətirmələri ilə öyünən mənəviyyatsız Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Xədicə İsmayıl, Sevinc Osmanqızı, Leyla Yunus, Qənimət Zahid, Vidadi İskəndərli, Arif Məmmədov, Orduxan Teymurxan kimi milli dönük və xəyanətkarlar öz ağalarının diktəsi ilə, ilk növbədə, ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin, pozulmuş ərazi bütövlüyümüzün bərpası və 44 gündə əldə olunan Qələbə Zəfərinin həmrəylik və birliyini həzm edə bilmirlər. "Sapı çürük olan baltalar" Azərbaycanı xaos və anarxiya məngənəsində çabalayan görmək istədikləri halda, Azərbaycanı son 18 il ərzində, məhz ölkə Prezidentinin məqsədyönlü, sistemli və müdrik siyasəti sayəsində ərazi bütövlüyümüz bərpa olunub, Qarabağ Azərbaycandırımıza sahib olmuşuq, Azərbaycan sabitlik və təhlükəszilik adasına çevrilmişdir. Bütün bu nailiyyətlər Xalqın öz Prezidentinə inamından, ətrafında sıx həmrəylik və birlik yaratmasının reallığıdır. Prezident də ayrı-ayrı beynəlxalq siyasi dairələrin və dövlətlərin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn bir müstəqil siyasət həyata keçirir.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev YAP-ın VII qurultayındakı nitqində AXC-Müsavat hakimiyyəti dövrünün hərtərəfli və obyektiv təhlili xüsusi diqqət çəkdi. Azərbaycan Prezidenti o vaxt iqtidarda olan AXC-Müsavat cütlüyünün ancaq öz maraqlarını güddüyünü, təcrübəsiz şəxslərin respublikanı idarə etdiklərini xatırladaraq dedi: "Belə insanlara xalq tərəfindən inam ola bilərdimi? Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Köhnə partnomenklatura demək olar ki, tamamilə iflic vəziyyətə düşmüşdü, hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC-Müsavat cütlüyü ölkəni talayırdı, dağıdırdı, müharibə gedə-gedə Ermənistana benzin satırdı. Bütün vəzifələrə rüşvət müqabilində insanlar təyin edilirdi... Azərbaycan xalqı buna dözə bilərdimi? Əlbəttə ki, yox...".

Bütün bu gerçəkliklər fonunda Azərbaycan öz sivil mübarizəsindən bir addım da geri çəkilmir və erməni yalanının ifşası ilə bağlı dövlətini, millətini sevən hər kəslə əməkdaşlıq etmək üçün əlindən gələni əsirgəmir. Məhz buna görə də, erməni ilə həmrəy olan AXCP-"Milli Şura" olan antimilli şəbəkənin buyruq qulları bu reallıqları görməkdə kor, eşitməkdə kardılar. Bu mənfur, erməni riyakarlarının quyruq bulayanları Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayılova, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli və bunlar kimi digər üzdəniraq ünsürlər hər zaman Azərbaycanın uğurlarına kölgə salmaqla, dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasına qarşı çıxmaq istəyən qüvvələrə dəstək verməklə kimlərə "xidmət" etdiklərini əvvəllər də nümayiş etdiriblər və bu gün də eyni iyrənc yoldadırlar. Ancaq bu dəfə işğalçıya, terrorçuya haqq qazandırmaqla, dünyanın gözü qarşısında Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbə Zəfəri qazanmasından öz erməni xislətlərini nümayiş etdirərək əsl riyakarlıqlarını ortaya qoyublar. Nə yazıq ki, daha çox qrant almaq düşüncəsi ilə "SOROS"-a satılmış "sapı özümüzdən olan çürük balta saplarımız" ağızlarına gələni, hətta karantin qaydalarının demokratiyaya zidd olduğunu deyərək Azərbaycan iqtidarını heç bir çərçivəyə sığmayan sözlərlə tənqid edirdilər. Dünyanın heyran olduğu Azərbaycanın Vətən müharibəsindəki mübarizəsinə və qazanılmış Zəfərə, hətta xalqın müqəddəs dəyərlərinə və müqəddəs duyğularına, şəhidlərimizin ruhuna toxunan antimilli qüvvələr ermənipərəst açıqlamalar verməkdən hələ də usanmırlar.

Sözsüz ki, bu gün radikal müxalifətin nəyə və kimə xidmət etdiklərini ictimaiyyət, bütövlükdə isə xalq çox gözəl bilir. Bir də düşmən çətirinin altına sığınıb öz xalqına, dövlətinə qarşı yalan və iftira atan, birbaşa düşmən qoltuğuna sığınan xəyanətkarlar mütləq və yenə də mütləq Azərbaycan tarixinin Zəfər səhifələrini yazmış xalqın bir gün onları mühakimə edəcəyindən qorxsunlar və cavab verəcəkləri gün uzaqda deyil.

***Rəfiqə HÜSEYNOVA***

---

## AÇIQLAMA: "Əli Kərimli və Cəmil Həsənli xaricdən aldıqları sifarişləri yerinə yetirirlər"



"Son vaxtlar müxalifət öz təxribatlarını, şər və böhtanlarını daha geniş formada davam etdirir, dezinformasiyalar yayır. Bu da bir daha təsdiq edir ki, xaricdəki və daxildəki məkrli qüvvələr eyni mərkəzdən idarə olunurlar". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Azərbaycan inkişafı ilə dünya dövlətləri arasında öz sözünü deyən və hörmətini qazanan bir dövlətdir: "Hazırda aparılan genişmiqyaslı islahatlar və dəyişikliklər ölkəmizin dayanıqlı inkişafının təmin edilməsinə yönəlib. Azərbaycan çox uğurlu inkişaf yolundadır. Ölkəmizin inkişafına kölgə salmaq istəyən bəzi qüvvələr əllərindən gələni edir. Yəni Azərbaycanın inkişafı daxili və xarici qüvvələrdə qısqanclıq yaradır. Bu baxımdan, ölkəmizin inkişafını əngəlləmək, qarayaxmaq və nə isə xoşagəlməz bir vəziyyət yaratmağa çalışırlar. Demək olar ki, onların fəaliyyəti ancaq ağa qara deməkdir. Adını azərbaycanlı qoyub, özünü siyasətçi hesab edən şəxs belə davranış sərgiləyərmi? Əlbəttə yox. Belə olan halda da, demək olar ki, o şəxslərə azərbaycanlı demək olmaz. Əli Kərimli, Cəmil Həsənli kimilər ancaq xaricdən aldıqları sifarişləri yerinə yetirirlər. Təbii ki, bu qüvvələr çox cılız qüvvələrdir və say etibarı ilə o qədər kiçikdirlər ki, istəsələr belə heç bir şey edə bilməzlər. Tam əminliklə demək olar ki, onların nə etmələrindən asılı olmayaraq heç vaxt öz məkirli istəklərinə çatmayacaqlar. Ümumiyyətlə, bu gün xalqımız onların kim olduqlarını və nə etmək istədiklərini çox yaxşı bilir. Bu baxımdan da, onların ictimaiyyət arasında heç bir dəstəyi yoxdur. Belə olan halda da müxalifət məhvə məhkumdur".

***Gülyana***

---

## Erməni KİV: "Bu gün Azərbaycan öz ərazisində nə istəyirsə onu da edir"



### *Movses Akopyan: "Sünikdə (Zəngəzurda) yaradılmış buraxılış məntəqəsi - Ermənistan hakimiyyətinə messecdir"*

**Ermənistanın "Joxovurd" qəzetinin yazdığına görə, hazırda Ermənistan hakimiyyəti üçtərəfli bəyanatda əks olunmuşları həyata keçirir, sadəcə bu, ictimaiyyətə hissə-hissə təqdim olunur. SİA adıçəkilən erməni nəşrinə istinadən xəbər verir ki, Ermənistan silahlı qüvvələri baş qərargahının sabiq rəisi Movses Akopyan söhbəti zamanı bildirib ki, hələ bir neçə ay əvvəl üçtərəfli bəyanata əsasən, Gorus-Qafan yolunun bir hissəsi Azərbaycana təhvil verilib.**

"Artıq 9 noyabrda (10 noyabr) imzalanmış sənəddən də aydın idi ki, Azərbaycan bu yolda yerləşəcək, əgər kimlərsə bu gün baş verənlərə təəccüb edirlərsə ya coğrafiyanı yaxşı bilmirlər, ya da imzalanmış sənədin məğzini anlamayıblar.

Belə çıxır ki, bu gün Azərbaycan öz ərazisində nə istəyirsə onu da edir. Əgər bu gün sərhəd məntəqəsi qurubsa, onda sabah yolu qaza və nəqliyyatın yolun bu hissəsindən keçməyinə qadağa qoya bilər...", deyən Akopyan həmin ifadəsinə məhz "əzabkeş və məzlum erməni" həyasızlığına xas olan fikrini də əlavə edib və deyib ki, guya Azərbaycan sərhədçiləri həmin yoldan keçən ermənilər saxlayaraq onları Azərbaycana qarşı cinayət törətməkdə ittiham edə bilərmiş.

"Joxovurd" yazır ki, Movses Akopyanın sözlərinə görə, Azərbaycan Zəngəzurdan Naxçıvana dəhliz çəkmək istəyir. O, Əliyevin (Azərbaycan Prezidenti İlham Əliyevin) sözlərindən sitat gətirib ki, "əgər dəhliz sözü sizin xoşunuza gəlmirsə, onda Laşın dəhlizi sözünü də dəyişə bilərsiniz". Və əgər Laçın dəhlizinin adı dəyişilərsə, onda ora sadəcə Ermənistanla Qarabağı birləşdirən avtomobil trasına çevriləcək, Azərbaycan isə orada gömrük məntəqələri və pasport nəzarəti rejimi məsələsini qaldıracaq. Yəni Sünikdə (Zəngəzurda) qurulan buraxılış məntəqəsi bizim hakimiyyətimizə olan messecdir, əgər dəhliz olmasa onda müvafiq buraxılış məntəqələri Qarabağda, Sünikdə (Zəngəzurda), sabah-birigün isə Azərbaycan silahlı qüvvələrinin olduqları yerlərdə yaradılacaq", erməni nəşri Movses Akopyanın sözlərini yazıb.



***Rövşən RƏSULOV***

# Antimilli şəbəkənin buyruq qulları - AXCP-"Milli Şura"-"beşinci kalon"...



## Və ya milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri iflasa məhkumdur

*Göz eyni nöqtəyə baxmaqdan, dil eyni yalanı danışmaqdan, qulaq eyni sözləri eşitməkdən yoruldu. Amma dağıdıcı müxalifət yorulmadı. Onun tuği-lənət olub bu millətin boğazına keçmiş dağıdıcı "qanadın" satqınlar "sülaləsi" - Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Xədicə İsmayıl, Sevinc Osmanqızı, Leyla Yunus, Qənimət Zahid, Vidadi İskəndərli, Arif Məmmədov və bu kimi mənəviyyatsız, əxlaqsız erməni yalaqları 28 ildən bəridir ətrafa yalan, böhtan, xəyanət püskürür, xalqı xırda bir cığırdan böyük el yoluna çevrilmiş müstəqillik, firavanlıq və haqq yolundan sapdırmağa çalışırlar. Bu naqislərin dərdi, azarı nədir? Umacaqları nədir?*

Doğrudan da, bu rəzillər hələ də anlamırlar ki, artıq xalq onları çoxdan tarixin zibilliklərinə atıb. Dialektikanın belə bir qanunu var: hər şey əvvəl-axır başlanğıc nöqtəsinə qayıdır. Ancaq nə yazıq ki, vaxtı ilə onların "siyasi meydanı" olan nə həmin çayxanalar qalıb, nə də onları dinləyəcək işsiz-gücsüz adamlar. 2003-cü ildən onların yerini xalq göstərdi - zibilxanalar!

Onu da vurğulamaq istərdim ki, bu gün onların "qatarı" çoxdan gedib. Fizikanın qanununda olduğu kimi: nöqtələr arasındakı məsafə artdıqca, biri kiçilib yox olur. Yəni yox olduğunuz halda, nə abırsızlıqdır sosial şəbəkələrdə edirsiniz? Çünki bu....

### Antimilli ünsürlərin siyasi "anatomiyası"....

Siyasi leksikona "söyüş diplomatiyası" kimi üzdəniraq "məfhum" gətirmələri ilə öyünən mənəviyyatsız Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Xədicə İsmayıl, Sevinc Osmanqızı, Leyla Yunus, Qənimət Zahid, Vidadi İskəndərli, Arif Məmmədov, Orduxan Teymurxan kimi milli dönük və xəyanətkarlar öz ağalarının diktəsi ilə, ilk növbədə, ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin, pozulmuş ərazi bütövlüyümüzün bərpası və 44 gündə əldə olunan Qələbə Zəfərinin həmrəylik və birliyini həzm edə bilmirlər. "Sapı çürük olan baltalar" Azərbaycanı xaos və anarxiya məngənəsində çabalayan görmək istədikləri halda, Azərbaycanı son 18 il ərzində, məhz ölkə Prezidentinin məqsədyönlü, sistemli və müdrik siyasəti sayəsində ərazi bütövlüyümüz bərpa olunub, Qarabağ Azərbaycandırımıza sahib olmuşuq, Azərbaycan sabitlik və təhlükəszilik adasına çevrilmişdir. Bütün bu nailiyyətlər Xalqın öz Prezidentinə inamından, ətrafında sıx həmrəylik və birlik yaratmasının reallığıdır. Prezident də ayrı-ayrı beynəlxalq siyasi dairələrin və dövlətlərin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn bir müstəqil siyasət həyata keçirir.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev YAP-ın VII qurultayındakı nitqində AXC-Müsavat hakimiyyəti dövrünün hərtərəfli və obyektiv təhlili xüsusi diqqət çəkdi. Azərbaycan Prezidenti o vaxt iqtidarda olan AXC-Müsavat cütlüyünün ancaq öz maraqlarını güddüyünü, təcrübəsiz şəxslərin respublikanı idarə etdiklərini xatırladaraq dedi: "Belə insanlara xalq tərəfindən inam ola bilərdimi? Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Köhnə partnomenklatura demək olar ki, tamamilə iflic vəziyyətə düşmüşdü, hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC-Müsavat cütlüyü ölkəni talayırdı, dağıdırdı, müharibə gedə-gedə Ermənistana benzin satırdı. Bütün vəzifələrə rüşvət müqabilində insanlar təyin edilirdi... Azərbaycan xalqı buna dözə bilərdimi? Əlbəttə ki, yox...".

Bütün bu gerçəkliklər fonunda Azərbaycan öz sivil mübarizəsindən bir addım da geri çəkilmir və erməni yalanının ifşası ilə bağlı dövlətini, millətini sevən hər kəslə əməkdaşlıq etmək üçün əlindən gələni əsirgəmir. Məhz buna görə də, erməni ilə həmrəy olan AXCP-"Milli Şura" olan antimilli şəbəkənin buyruq qulları bu realllıqları görməkdə kor, eşitməkdə kardılar. Bu mənfur, erməni riyakarlarının quyruq bulayanları Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayılova, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli və bunlar kimi digər üzdəniraq ünsürlər hər zaman Azərbaycanın uğurlarına kölgə salmaqla, dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasına qarşı çıxmaq istəyən qüvvələrə dəstək verməklə kimlərə "xidmət" etdiklərini əvvəllər də nümayiş etdiriblər və bu gün də eyni iyrənc yoldadırlar. Ancaq bu dəfə işğalçıya, terrorçuya haqq qazandırmaqla, dünyanın gözü qarşısında Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbə Zəfəri qazanmasından öz erməni xislətlərini nümayiş etdirərək əsl riyakarlıqlarını ortaya qoyublar. Nə yazıq ki, daha çox qrant almaq düşüncəsi ilə "SOROS"-a satılmış "sapı özümüzdən olan çürük balta saplarımız" ağızlarına gələni, hətta karantin qaydalarının demokratiyaya zidd olduğunu deyərək Azərbaycan iqtidarını heç bir çərçivəyə sığmayan sözlərlə tənqid edirdilər. Dünyanın heyran olduğu Azərbaycanın Vətən müharibəsindəki mübarizəsinə və qazanılmış Zəfərə, hətta xalqın müqəddəs dəyərlərinə və müqəddəs duyğularına, şəhidlərimizin ruhuna toxunan antimilli qüvvələr ermənipərəst açıqlamalar verməkdən hələ də usanmırlar.

Sözsüz ki, bu gün radikal müxalifətin nəyə və kimə xidmət etdiklərini ictimaiyyət, bütövlükdə isə xalq çox gözəl bilir. Bir də düşmən çətirinin altına sığınıb öz xalqına, dövlətinə qarşı yalan və iftira atan, birbaşa düşmən qoltuğuna sığınan xəyanətkarlar mütləq və yenə də mütləq Azərbaycan tarixinin Zəfər səhifələrini yazmış xalqın bir gün onları mühakimə edəcəyindən qorxsunlar və cavab verəcəkləri gün uzaqda deyil.

**Rəfiqə HÜSEYNOVA**

---

## AÇIQLAMA: "Əli Kərimli və Cəmil Həsənli xaricdən aldıqları sifarişləri yerinə yetirirlər"



"Son vaxtlar müxalifət öz təxribatlarını, şər və böhtanlarını daha geniş formada davam etdirir, dezinformasiyalar yayır. Bu da bir daha təsdiq edir ki, xaricdəki və daxildəki məkrli qüvvələr eyni mərkəzdən idarə olunurlar". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Azərbaycan inkişafı ilə dünya dövlətləri arasında öz sözünü deyən və hörmətini qazanan bir dövlətdir: "Hazırda aparılan genişmiqyaslı islahatlar və dəyişikliklər ölkəmizin dayanıqlı inkişafının təmin edilməsinə yönəlib. Azərbaycan çox uğurlu inkişaf yolundadır. Ölkəmizin inkişafına kölgə salmaq istəyən bəzi qüvvələr əllərindən gələni edir. Yeni Azərbaycanın inkişafı daxili və xarici qüvvələrdə qısqanclıq yaradır. Bu baxımdan, ölkəmizin inkişafını əngəlləmək, qarayaxmaq və nə isə xoşagəlməz bir vəziyyət yaratmağa çalışırlar. Demək olar ki, onların fəaliyyəti ancaq ağa qara deməkdir. Adını azərbaycanlı qoyub, özünü siyasətçi hesab edən şəxs belə davranış sərgiləyərmi? Əlbəttə yox. Belə olan halda da, demək olar ki, o şəxslərə azərbaycanlı demək olmaz. Əli Kərimli, Cəmil Həsənli kimilər ancaq xaricdən aldıqları sifarişləri yerinə yetirirlər. Təbii ki, bu qüvvələr çox cılız qüvvələrdir və say etibarı ilə o qədər kiçikdirlər ki, istəsələr belə heç bir şey edə bilməzlər. Tam əminliklə demək olar ki, onların nə etmələrindən asılı olmayaraq heç vaxt öz məkirli istəklərinə çatmayacaqlar. Ümumiyyətlə, bu gün xalqımız onların kim olduqlarını və nə etmək istədiklərini çox yaxşı bilir. Bu baxımdan da, onların ictimaiyyət arasında heç bir dəstəyi yoxdur. Belə olan halda da müxalifət məhvə məhkumdur".

**Gülyana**

---

## Erməni KİV: "Bu gün Azərbaycan öz ərazisində nə istəyirsə onu da edir"



### *Movses Akopyan: "Sünikdə (Zəngəzurda) yaradılmış buraxılış məntəqəsi - Ermənistan hakimiyyətinə messecdir"*

**Ermənistanın "Joxovurd" qəzetinin yazdığına görə, hazırda Ermənistan hakimiyyəti üçtərəfli bəyanatda əks olunmuşları həyata keçirir, sadəcə bu, ictimaiyyətə hissə-hissə təqdim olunur. SİA adıçəkilən erməni nəşrinə istinadən xəbər verir ki, Ermənistan silahlı qüvvələri baş qərargahının sabiq rəisi Movses Akopyan söhbəti zamanı bildirib ki, hələ bir neçə ay əvvəl üçtərəfli bəyanata əsasən, Gorus-Qafan yolunun bir hissəsi Azərbaycana təhvil verilib.**

"Artıq 9 noyabrda (10 noyabr) imzalanmış sənəddən də aydın idi ki, Azərbaycan bu yolda yerləşəcək, əgər kimlərsə bu gün baş verənlərə təəccüb edirlərsə ya coğrafiyanı yaxşı bilmirlər, ya da imzalanmış sənədin məğzini anlamayıblar.

Belə çıxır ki, bu gün Azərbaycan öz ərazisində nə istəyirsə onu da edir. Əgər bu gün sərhəd məntəqəsi qurubsa, onda sabah yolu qaza və nəqliyyatın yolun bu hissəsindən keçməyinə qadağa qoya bilər...", deyən Akopyan həmin ifadəsinə məhz "əzabkeş və məzlum erməni" həyasızlığına xas olan fikrini də əlavə edib və deyib ki, guya Azərbaycan sərhədçiləri həmin yoldan keçən erməniləri saxlayaraq onları Azərbaycana qarşı cinayət törətməkdə ittiham edə bilərmiş.



"Joxovurd" yazır ki, Movses Akopyanın sözlərinə görə, Azərbaycan Zəngəzurdan Naxçıvana dəhliz çəkmək istəyir. O, Əliyevin (Azərbaycan Prezidenti İlham Əliyevin) sözlərindən sitat gətirib ki, "əgər dəhliz sözü sizin xoşunuza gəlmirsə, onda Laçın dəhlizi sözünü də dəyişə bilərsiniz". Və əgər Laçın dəhlizinin adı dəyişilərsə, onda ora sadəcə Ermənistanla Qarabağı birləşdirən avtomobil trasına çevriləcək, Azərbaycan isə orada gömrük məntəqələri və pasport nəzarəti rejimi məsələsini qaldıracaq. Yəni Sünikdə (Zəngəzurda) qurulan buraxılış məntəqəsi bizim hakimiyyətimizə olan messecdir, əgər dəhliz olmasa onda müvafiq buraxılış məntəqələri Qarabağda, Sünikdə (Zəngəzurda), sabah-birigün isə Azərbaycan silahlı qüvvələrinin olduqları yerlərdə yaradılacaq", erməni nəşri Movses Akopyanın sözlərini yazıb.

**Rövşən RƏSULOV**

# "Radikal müxalifət ilk növbədə anlamalıdır ki,..."



***"Ümummilli maraqların tələb etdiyi siyasi birlikdən imtina edən qüvvələr bununla əslində milli maraqlara xidmət etməkdən boyun qaçırırlar". Bu sözləri SİA-ya açıqlamasında politoloq Yusif Bağırzadə deyib.***

Onun sözlərinə görə, Vətən müharibəsində erməni faşizmi üzərində qələbəmizin bir ili artıq geridə qalıb: "Heç şübhəsiz ki, bu qələbənin əldə edilməsində Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Ordumuzun gücü ilə yanaşı xalqımızın milli birliyi və həmrəyliyi də mühüm rol oynadı. Təsadüfi deyildi ki, İkinci Qarabağ savaşında minlərlə gənc erməni işğalçılarına qarşı mübarizə aparmaq üçün könüllü müraciət edərək cəbhəyə yollanmaq istəklərini ortaya qoydular. Arxa cəbhədə olanlar həmrəylik göstərərək öz əməlləri ilə ön cəbhədə vuruşanlara əllərindən gələn köməyi əsirgəmədilər, hər cür maddi və mənəvi dəstək verməyə hazır olduqlarını göstərdilər, bir yumruq kimi milli birlik nümayiş etdirdilər.

Bu birlik və həmrəylik siyasi sferada da özünü qabarıq şəkildə göstərmiş oldu. Son iki ilə yaxın vaxt ərzində aparılan genişmiqyaslı islahatlar çərçivəsində formalaşmış olan yeni siyasi münasibətlər bu birliyin əldə edilməsində xüsusi rol oynadı. Bütün bunlar bir daha onu göstərdi ki, siyasi, dini, sosial mövqeyindən asılı olmayaraq vətənin ümumi maraqları, Azərbaycan xalqının birliyi hər bir vətəndaş üçün bütün arzu və istəklərdən öndə dayanır.

Lakin təəssüf hissi ilə qeyd etməliyəm ki, ümummilli maraqların tələb etdiyi siyasi birlikdən imtina edən müəyyən qüvvələr də var. Radikal müxalifət adlanan bu kəsim milli birlik kontekstində ümummilli dialoqun vacibliyini dərk etmək istəməyərək onlara uzanan əli tutmaqdan imtina edir və bununla da əslində milli maraqlara xidmət etməkdən boyun qaçırırlar. Bu qüvvələr cənab Prezidentin də dediyi kimi hətta Vətən savaşı dövründə belə düşmənin dəyirmanına su tökür, ordumuza qarşı çirkin kampaniya aparıb. Ordumuzu ləkələmək istiqamətində növbəti təxribat xarakterli addımlar atdılar. Düzdür, bu radikal qurumların siyasi dialoqda iştirak etməmələri cəmiyyət həyatı üçün elə də önəmli deyil. Ancaq bununla belə hakimiyyətin belə bir dialoq çağırışında olmasının özü çox müsbət tendensiyadır. Çünki Azərbaycanda hakimiyyət və müxalifət partiyalarının bir sıra milli məsələlərdə daim dialoqda olmaları, vahid platformadan çıxış etmələri ölkəmizin siyasi nüfuzunun daha da yüksəlməsi və siyasi sabitliyin qorunması üçün vacib məsələlərdən biridir.

Çox təəssüf ki, "Milli Şura" adlandırılan radikal qruplaşma, AXCP, Müsavat, HƏP, VİP kimi partiyalar və onlarla koordinasiyalı şəkildə fəaliyyət göstərən və sosial şəbəkələrdən Azərbaycan xalqının maraqlarına zərbə vurmağa çalışan ayrı-ayrı sosial şəbəkə iştirakçılarının fəaliyyəti heç bir halda Azərbaycanın maraqlarına uyğun deyil və bu, siyasi mədəniyyətimizə və siyasi sistemimizə qeyri-əxlaqi və dağıdıcı tendensiyalar gətirir, Azərbaycan xalqının ümumi siyasi mədəniyyətinə və birliyinə zərbə vurur. Belə ki, illər boyu "hakimiyyət işğal olunmuş əraziləri azad etmək iqtidarında deyil" tezisini gündəmdə saxlamağa çalışan radikal qüvvələr 44 günlük müharibədən sonra da bu həssas mövzunu istismar etməyə cəhd göstərirlər. Radikal müxalifət hələ də 44 günlük müharibədən sonra yaranmış reallığı dərk etmir və bu yanaşmada erməni revanşistlərindən fərqlənməyərək Qarabağ kimi həssas mövzudan istifadə edərək gündəmdə qalmağa cəhd edirlər. Lakin anlamırlar ki, rasional düşüncəli və kreativ yanaşma tətbiq edən institut kimi çıxış edə bilmədikləri üçün, ancaq korporativ maraqlar ətrafında birləşdikləri üçün siyasi dərnək təsiri bağışlayır və hər keçən gün daha da zəifləyirlər. Onların inkişaf etmiş demokratik cəmiyyətlərin müxalifət institutları kimi müasir siyasi metodlara, sivil mübarizə taktikasına istinad etməməsi və bütün fəaliyyətinin əsasında milli maraqların deyil, qrup mənafeyinin durması radikal müxalifətin konseptual olaraq, demokratik dəyərlərin və ideyaların daşayıcısı olmadığını isbatlayır.

Bu şəkildə fəaliyyət isə radikal müxalifətin Azərbaycan dövlətinin inkişafına töhfə vermək üçün səmərəli strategiyaya və digər resurslara malik olmamasından irəli gəlir. Radikallar yalnız xarici qüvvələrin siyasi-maddi dəstəyilə ölkədə ictimai-siyasi sabitliyi pozmağı özünün missiyası hesab edir. Radikal müxalifət ilk növbədə anlamalıdır ki, onların xarici anti-Azərbaycan qüvvələrindən dəstək və etimad gözləmələri onların məğlubiyyətini şərtləndirir. Belə ki, həmin anti-Azərbaycan dairələrini düşündürən əsas məsələ yalnız onların siyasi-maddi dəstəyini alan radikal müxalifəti hansı formada Azərbaycan hakimiyyətinə və dövlətçiliyə qarşı qoymaqdan ibarətdir.

Bu gün tam məsuliyyəti ilə demək olar ki, Vətən müharibəsindəki qələbədən, torpaqlarımızın işğaldan azad olunmasından, ölkəmizin günü-gündən güclənməsindən və qüdrətli dövlətə çevrilməsindən narahatlıq duyan tərəflərdən biri Ermənistan və onların havadarları olan bəzi dövlətlərdisə digəri də radikal müxalifətdir. Çünki yuxarıda da qeyd etdiyim kimi bu qrupların maraqları Azərbaycan dövlətçiliyinin inkişafına deyil, yalnız və yalnız şəxsi mənafelərdən ibarətdir. Şəxsi mənafelərinə çatmaq üçün isə istənilən vasitədən istifadəni özləri üçün məqbul hesab edir və hətta anti-Azərbaycan layihələrində yer almaqdan belə çəkinmirlər.

Bunun sübut etmək üçün çox uzağa getməyə ehtiyac yoxdur, elə 2013-cü il Prezident seçkiləri ərəfəsində Rusiyadan idarə olunan və həmin ölkənin vətəndaşlığını daşıyan birinin prezidentliyə namizəd kimi göstərilməsi kifayətdir ki, Milli Şuranın əslində anti milli bir qurum olduğunu deyək. İctimai rəy, hüquqi baryerlər bu layihənin başındakı adamın - İbrahimbəyovun Azərbaycanda siyasi blok lideri olmasına imkan vermədiyindən həmin qurum Əli Kərimlinin nəzarətinə keçdi və AXCP-nin bir şöbəsinə çevirdi. Sonrakı fəaliyyətləri də göz önündədir. Xarici havadarlarının xoşuna gəlmək üçün cinsi azlıqlardan üzr istəyən, Dünya bazarında neftin ucuzlaşmasına sevinən Milli Şura təmsilçiləri bununla da kifayətlənməyərək bir cəbhədə yer aldıqları digər müxalifləri belə hədəf alır və sanki bunlardan başqa müxalifət yoxdur obrazını yaratmağa çalışırlar. Azərbaycanın reallıqlarını təhrif etmək, onun imicinə ləkə yaxmaq, anti-Azərbaycan təbliğatı aparmaq bu qurumun başında duranların sevimli peşəsinə çevrilib desək səhv etmərik.

Azərbaycanın hər hansı bir uğuruna sevinməyən radikal müxalifət təmsilçilərinin fəaliyyətində ən prioritet məsələ ölkəmiz haqqında onun layiq olmadığı təsəvvürləri yaratmaqdan ibarətdir. Bütün bunlar Milli şuranın nə millət, nə də xalq anlayışları ilə hər hansı əlaqəsinin olmadığını bariz şəkildə təsdiq edir.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artması, ictimai-siyasi həyatın bütün sahələrində reallaşdırılan islahatların dərinləşməsi, siyasi partiyalar arasında sivil və etimadlı münasibətlər sisteminin formalaşması prosesinin sürətlənməsi, cəmiyyətdə siyasi rəqiblik anlayışına yeni baxışın ortaya qoyulması, siyasi sistemin təşəkküllü üçün mühüm addımların atılması, ölkəmizdə ilk dəfə olaraq parlament rəhbərliyinin çoxpartiyalılıq prinsipi əsasında müəyyənləşməsi, Vətən savaşındakı uğurlarımız və regionda yaratdığımız yeni reallıqlar marginallaşaraq özlərini cəmiyyətdən təcrid edən radikal müxalifət təmsilçilərini sözün əsl mənasında vahiməyə salır. Ona görə də antimilli ünsürlər bu gün erməni lobbisi ilə sinxron hərəkət edərək, xüsusilə də informasiya müstəvisində təxribatlar törətməyə çalışır, ölkədəki sabitliyin pozulmasının tərəfdarı kimi çıxış edirlər. Amma xalq 90-cı illərdə AXC-Müsavat hakimiyyətinin Azərbaycanı uçurumun kənarına gətirdiyi günləri, bu ünsürlərin xəyanətinə görə torpaqlarımızın 20 faizinin düşmən işğalına məruz qaldığını unutmur. Ona görə də bu antimilli ünsürlərin milli maraqlara yönəlmiş bütün hərəkətləri, sadəcə olaraq, iflasa məhkumdur."

***Abutel İlhamqızı***

# "44 günlük dastan" adlı tədbir keçirilib

***Əzəmətli Vətən müharibəsində qazanılan qələbənin birinci ildönümü ilə əlaqədar Sübhnur Tədris Mərkəzinin təşkilatçılığı ilə Zəfər Günü ilə bağlı "44 günlük dastan" adlı tədbir keçirilib.***




Qafqaz Busines Mərkəzində baş tutan tədbirdə dövlət himni səsləndirildikdən sonra, canlarını Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda qəhramancasına fəda etmiş vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə aparıcı qismində Sübhnur Tədris Mərkəzinin rəhbəri Gülnarə Hüseynova və aparıcı, jurnalist Sevinc Rəcəbova çıxış ediblər. Tədbirdə söz alan Azərbaycan Respublikası Milli Məclisinin Deputatı Könül Nurullayeva, AMEA-nın filologiya üzrə fəlsəfə doktoru Əpoş Vəliyev, Peşəyönümlü Təhsilin inkişafına dəstək İctimai Birliyinin sədri İradə Əlili, Ombudsman əməkdaşı, Yazıçılar Birliyinin üzvi Azadə Novruzova çıxış edərək, vətən müharibəsində qazanılan böyük qələbənin əldə olunmasında Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında igid oğullarımızın misilsiz şücaətləri barədə danışıblar.

Tədbirin qonaqları olan Vətən müharibəsi qaziləri Ülvi Qədir və digər Qazilər çıxışları zamanı vətən müharibəsi ilə bağlı təəssürat və xatirələrini bölüşüblər. Eyni zamanda tədbirdə Prezident İlham Əliyevin zəfər çıxışlarından ibarət video-çarx da təqdim edilib. Tədbirin qonaqları sırasında Vüsalə Əmiraslanova - Ahəng psixologiya reabilitasiya mərkəzinin rəhbəri; Ailə - uşaq psixoloqu Aytən x. Gənclər Fondunun vitse prezidenti Salman Əliyev Azərbaycan Dövlət İqtisad Universiteti UNEC Dizayn məktəbinin yaradıcılıq dərnəyinin rəhbəri Aytən müəllimə iştirak ediblər. Foyede sərgilənən gənc dizaynerlərin vətənpərvərlik ruhunda hazıladıqları əsərləri qonaqlar tərəfindən maraqla qarşılanıb.

Tədbirdə həmçinin qazilərlə yanaşı şəhidlərimizin bizə əmanət etdiyi ailələri də iştirak ediblər.

Sübhnur Tədris Mərkəzinin şagirdləri və Aysu Türkel tərəfindən "Zəfər" şeiri məharətlə səsləndirilmiş tədbirin davamında isə "Xarıbülbül" musiqi qrupunun və "Qarabağ"qrupunun rəhbəri Asim Pirimov və xanəndələrin ifasında "Azərbaycan" Xudayar Təsnifi və s.musiqilər təqdim edilib.

Vətən müharibəsinin qaziləri və şəhid ailələri səhnəyə dəvət edilərək onlara xalqımızın adından bir daha təşəkkür edilmiş, kitablar və təşəkkürnamə təqdim edilmişdir. Tədbirin sonunda Sübhnur Tədris Mərkəzinin rəhbəri G. Hüseynova çıxış edərək, tədbirə qatılan hər kəsə dərin təşəkkürünü bildirmiş, bu cür tədbirlərin uşaqlarda vətənpərvərlik hisslərini yüksəltdiyini, gələcək nəsillərin vətənə olan sevgisini artırdığını diqqətə çatdırmışdır.

***Sülhməramlı Təşəbbüslər və Konfliktologiya Institutunun direktoru, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin dosenti Denis Denisov "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda yaranmış geosiyasi vəziyyətlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# “Erməni radikalları hesab edir ki, Ermənistanın məğlubiyyətində Rusiya günahkardır”





**- Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli bəyanatının imzalanmasından 1 il ötür. Bu müddət ərzində tərəflər hansısa konsensusa yaxınlaşıblarmı?**

- Əlbəttə, tərəflər müəyyən konsensusa gəliblər və heç də əbəs yerə üçtərəfli bəyanatın qəbulunun ildönümündən bəhs etmirik, lakin eyni zamanda, müəyyən fikir ayrılıqlarının hələ də davam etməsi tamamilə təbiidir və təəccüblü deyil. Bu bir il ərzində mövqelər tam müəyyənləşməyib, amma hesab edirəm ki, belə qısa müddət ərzində bütün tərəflərin mövqeləri, şərtlər və tapşırıqlar nəzərə alınmaqla bu münaqişənin tam həllinin mümkün olacağını gözləmək sadəcə mümkün deyil. Reallıqda, son onilliklərin münaqişələrini təhlil etsək, görərik ki, çox təəssüf ki, bu cür böhranlar belə bir zaman çərçivəsində həll olunmur. Buna mane olan çoxlu sayda faktorlar var ki, ərazilərdə həqiqətən həqiqi, strateji sülhün bərqərar olması üçün daha çox vaxt lazımdır və təbii ki, tərəflərin siyasi iradəsi lazımdır. Üstəlik, bu, konkret qərarlarda ifadə olunmalıdır. Belə olan halda deyə bilərik ki, indiki mərhələdə münaqişənin təzələnməməsi üçün siyasi iradənin olduğu görünür.

**- Rusiya ilə Türkiyə arasında Qarabağ istiqamətində münasibətləri necə qiymətləndirirsiniz? Təmas nöqtələrinin olması barədə deyə bilərsinizmi?**

- Bu, birmənalı cavabı olmayan sualdır. Bir tərəfdən, Cənubi Qafqaz regionu ilə bağlı müxtəlif müstəvilərdə, həm birinin, həm də digər tərəfin maraqlı olduğu geostrateji, geoiqtisadi layihələrdə ümumi maraqlar var. Bu, şübhəsiz ki, münaqişənin həlli istiqamətində birgə səylərdə çox mühüm köməkdir.

Digər tərəfdən, hər iki dövlət regionda lider olduqlarını iddia edirlər, strateji məqsədlər çox vaxt bir qədər fərqli olur, lakin bu, tamamilə normaldır. Türkiyə və Rusiyanın geosiyasi müstəvidə bir yerdə işləməsi təəccüblü olardı.

**- Moskva ilə münasibətləri kəsməyi və Qərblə yaxınlaşma kursu elan etməyi müdafiə edən erməni millətçilərinin çərşənbə axşamı keçirdiyi mitinqə Rusiya ictimaiyyəti necə münasibət göstərdi? Üstəlik, Moskvanın strateji müttəfiqi belə hücumlara niyə icazə verir?**

- Bu cür hadisələrdən danışanda biz onları birmənalı olaraq Ermənistan xalqı ilə eyniləşdirmirik. Rəsmi səviyyədə olsaydı, təbii ki, reaksiya verməyə və bunu çox sərt etməyə dəyərdi. Amma biz çox yaxşı başa düşürük ki, Ermənistan cəmiyyətinin bir hissəsi indiki vəziyyəti çox ağrılı şəkildə yaşayır və həqiqətən də radikalların cəmiyyətdə müəyyən nisbəti var ki, bu da 10%-ə qədər qiymətləndirilə bilər. Onlar hesab edirlər ki, mövcud vəziyyətin günahkarı Rusiya Federasiyasıdır. Bu adamlar isə belə mitinqlərə çıxır, yersiz və dağıdıcı bəyanatlar verirlər ki, onlar şübhəsiz ki, münaqişənin həllinə və regional sabitliyə, ən əsası isə Ermənistanın normal inkişafına müsbət təsir göstərə bilməz. Hamımız mükəmməl başa düşürük və bunu qəbuledilməz hesab edirik.

**- Koçaryanın Ermənistanda hakimiyyətə gələcəyi təqdirdə revanş perspektivi mümkündürmü? Onlar üçtərəfli bəyanatın nəticəsini yenidən nəzərdən keçirə bilirlərmi?**

- Birincisi, Ermənistanda Koçaryanın və ya digər müxalifətçilərin hakimiyyətə gələ biləcəyinə inanmaq üçün heç bir obyektiv ilkin şərt yoxdur. Xatırladığımız kimi, yayda seçkilər keçirildi və seçkilərdə hazırkı baş nazir Paşinyanın partiyası kifayət qədər inamlı qələbə qazanmışdı. Və müharibə başa çatdıqdan dərhal sonra Ermənistanda siyasi rejimi dəyişmək cəhdləri oldu, lakin uğursuz oldu. Bu vəziyyətdə müxalifətin iqtidara gəlməsi və bundan sonra nə olacağı ilə bağlı mübahisə etmək çox düzgün görünmür.

İkincisi, siz sualınızda düzgün qeyd etdiniz ki, müəyyən reviziya ola bilər, amma heç bir münaqişə olmayacaq, çünki bu məsələdə əsas geosiyasi oyunçuların konsensusu var. Yeri gəlmişkən, Ermənistan tərəfdən danışanda Azərbaycan tərəfini də unutmaq olmaz. Azərbaycan cəmiyyətində də elə insanlar var ki, deyirlər ki, məsələni sona çatdırmaq lazımdır və artıq əldə olunanlarla kifayətlənmək olmaz. Bu baxımdan, tarazlığı qorumaq və isti başları çəkmək çox vacibdir. Ermənistanda siyasi konfiqurasiya necə dəyişsə də, Rusiyada vəziyyətin gərginləşməsinin qarşısını almağa və müharibəni bərpa etməyə yönəlmiş siyasi iradə var.

**- Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyətini necə qiymətləndirirsiniz? Onlar öz işlərini görürlərmi? Bu kontekstdə Ermənistanın müdafiə naziri Arşak Karapetyanın Qarabağa səfəri ilə bağlı erməni tərəfinin son təxribatını xatırlatmaq istərdim. O, Rusiya sülhməramlılarının icazəsi olmadan Azərbaycan ərazisinə daxil ola bilərdimi?**

- Əgər Azərbaycanın Qarabağdakı Rusiya sülhməramlı kontingentinin fəaliyyətinə ciddi iddiaları varsa, o zaman onları hər zaman açıq şəkildə ifadə edə, lazım gələrsə, öz dəvətini geri götürə bilər. Biz başa düşürük ki, istənilən münaqişədə tərəflərdən biri konkret sülhməramlı missiyaya qarşı çıxırsa, o zaman o, normal fəaliyyət göstərə bilməyəcək. Hadisələr davam edəcək, insidentsiz sülhməramlı missiyalar yoxdur. Əks halda bu, istənilən münaqişənin həlli üçün universal mexanizmə çevrilərdi. Efiopiyada indi üsyançılarla hökumət qoşunları arasında hərbi əməliyyatlar gedir, ona görə də siz ora sülhməramlı göndərə bilərdiniz və hər şey bitərdi, lakin bu, belə işləmir.

Hər şey kompromislərlə işləyir, təbii ki, belə hadisələr Azərbaycan tərəfi üçün ağrılıdırsa, o zaman onlar öz narahatlıqlarını sülhməramlı kontingentin rəhbərliyinə və Rusiya Federasiyasının ali siyasi rəhbərliyinə çatdırmalıdırlar və bunun üçün bütün imkanlar var. Sual yaranarsa, o zaman səslənməlidir, sülhməramlılarla əlaqə saxlayın. Bu, sabitliyin qarantıdır. Burada əlavə edə bilərik ki, Azərbaycan ərazisində Rusiya-Türkiyə birgə monitorinq mərkəzinin yaradılması müsbət məqamdır. Burada biz iki əsas regional oyunçunun sülhyaratma təşəbbüsünün birgə həyata keçirilməsini görürük, onlar bu halda kompromis yolu ilə bu sabitliyin zəruriliyini başa düşürlər. Bu, Rusiya və Türkiyənin maraqlarının yüz faiz üst-üstə düşmədiyini təsəvvür etməyə çalışanların təkzibidir. Və belə layihələr bunu təkzib edir və hər iki tərəfin gələcək münaqişələrdə deyil, regionda sabitlikdə maraqlı olmasından danışır.




**- Kommunikasiyaların blokdan çıxarılmasının ləngiməsi nə ilə bağlıdır?**

- Bu problem var və onu ancaq iki tərəfin siyasi iradəsi ilə həll etmək olar. Biz bilirik ki, iştirak edən tərəflərə o qədər də rəğbət bəsləməyən bir sıra nüanslar var, onlar obyektiv olaraq ikitərəfli münasibətlərin bərpasına mane olur. Bütün bunlar siyasi müstəvidədir və siyasətçilər bu sahələrdə dialoqları intensivləşdirmək qərarına gəlməyincə, təəssüf ki, heç nə olmayacaq. Burada bütün amillər - iqtisadi, sosial-mədəni, humanitar-siyasi prosesin girovudur.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
13 noyabr
2021-ci il




# Neymar məşqə 12 milyonluq helikopterlə gedib

Futbol üzrə Braziliya millisinin və PSJ-nin üzvü Neymar yenidən diqqət mərkəzinə düşüb. Qol.az xəbər verir ki, 29 yaşlı hücumçu millinin son məşqinə şəxsi helikopteri ilə gedib. Helikopterin qiymətinin 12 milyon avro olduğu bildirilir.

Qeyd edək ki, Braziliya millisi DÇ-2022-nin seçmə mərhələsində noyabrın 17-də Argentinanın qonağı olacaq.

# "Kaş münasibətlər bu qədər çirkin olmasaydı"



**Məşhur türk aktrisa Bensu Soral evliliyi və hələ də həssas bir proses yaşayan əri Hakan Başla bağlı sualları cavablandırıb.**

SİA xarici mətbuata istinadən xəbər verir ki, 2018-ci ildə ailə qurduğu Hakan Başla evliliyində problemlər yaşayan Bensu Soral "Hakanla elə bir düşmənçiliyimiz yoxdur! O, mənim üçün çox dəyərli insandır" deyib.

Keçmiş həyat yoldaşı Kubilay Aka ilə aralarındakı sevgi söz-söhbətinə gəlincə, "Digər sənətçi dostlarımızın da başına gələn bir vəziyyətdir. Kaş münasibətlər bu qədər çirkin olmasaydı. Bu, çox məyusedici və depressiv vəziyyətdir" dedi.

***Ayşən Vəli***

# Qonur ayılar şəhərdə gəzintiyə çıxıb



ABŞ-da həm yerli əhalinin, həm də vəhşi təbiət həvəskarlarının tanıdığı məşhur qonur ayı 4 balasını da götürərək şəhərə gəzintiyə çıxıb. Tədqiqatçıların müayinə üçün taxdıqları 399 nömrəli qulaq etiketi ilə də tanınan qonur ayı çərşənbə axşamı gecə Vayominq ştatında balaları ilə qəsəbəni gəzərkən görülüb. SİA xarici mətbuata istinadən xəbər verir ki, vəhşi təbiət həvəskarları və səlahiyyətlilər tərəfindən tanınan ayılar, bir neçə ildir ki, tədqiqatçılar tərəfindən izlənilib. Adətən "Qrand Teton" Milli Parkında balaları ilə yaşayan qonur ayı, əvvəllər də dəfələrlə magistral yollarda, parklarda, küçə və xiyabanlarda görünüb.

***Rüqəyya Orucova***

# İnsanlar öldüyü zaman niyə yuyulur?

## *Bilmədiyiniz sirli məqamlar*



***"Dinimizdə Allahın buyurduğu qanunlar var, hansı ki, islam şəriətində Allah bu qanunları Peyğəmbərimizə buyurub. Peyğəmbər də Quranda buyurulanları insanlara çatdırıb. Ona görə də, bir insan dünyada sağ ikən nələri etməlidir, necə yaşamalıdır. Bunun da özünəxas qanuna uyğunluqları var". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev bildirib.***

Onun sözlərinə görə, islama qədər təkallahlılıq və ya çoxallahlılığın fərqi yoxdur. Hər hansı dini əqidələrdə, bir insan dünyadan köçdüyü zaman, vəfat etdiyi zaman onun üçün icra olunan hökmlər var. Eyni ilə islam dinində də dünyasını dəyişən insan üçün nələrin edilməsini Peyğəmbər buyurub. Birinci, təbii ki, ölü mütləq yuyulmalıdır, çünki, onu yeni bir dünyaya, axirət dünyasına yola salırlar. Bilirsiz ki, yuyulma təmizlənmə, bütün vücudun pak olması deməkdir. Zahirdə bizim boynumuza haqdır ki, Peyğəmbərin buyurduğu kimi ölü yuyulmalıdır və mütləq o kəfənə bükülməlidir. Mümkünsə həmin kəfən ağ parçadan olmalıdır. Niyə görə ağ? Çünki, ağın üzərinə nəsə yazılır, nəsə nişan vurulur. Ağ rəng paklardan pak, təmizlərdən təmizdir. Hətta görürsüz ki, ağ rəngin seçimi birmənalı olaraq qəbul olunur ki, bu təmizlikdir, saflıqdır. Ona görə də, öz haqq dünyasına gedən insanı ağ bir libasa bürüyüyürlər, yəni kəfənə bürüyürlər və onu axirətə yola salırlar.

Son olaraq cənazə namazının qılınması da o deməkdir ki, həmin şəxsin ətrafındakı insanlar ona dua edirlər. Cənazə namazı bir növ duadır. Dördüncü hökm də onu dəfn etməkdir yəni, islam dinində dünyasını dəyişən insan torpağa dəfn olunur. Başqa dinlərdə ölüyə fərqli cür yanaşırlar, məsələn atəşpərəstlərdə ölünü yandırırlar və ya harasa qoyanlar var. Lakin, islam dinində insan mütləq torpağa dəfn olunmalıdır. Çünki, insan torpaqdan yaranıb və torpağa da gedəcək. Hər bir rəhmətə gedən insan üçün onun əməllərinin mənası, məntiqi, dəyəri var və bunlar boş yerə deyilməyib. Ona görə də, onun yuyulması da vacibdir. İlk olaraq məsələn, mən bu gün kimləsə əl verib görüşsəm və ya əlimi harasa vursam təbii ki, onu yuyuram, təmizləyirəm. Hətta insan namazda belə, ondan öncə dəstamazalır. Nəyə görə? Düzdür insan nə qədər pak və təmiz olsa da yenə də ola bilər əli harasa dəyib və ya kimləsə təmas qurub və Allahla icabətə getdiyi üçün dəstamaz almağı daha yaxşıdır. İnsan əlini, üzünü, əzalarını yuyur və paklaşır. Buna paklıq təhatət amili də deyirlər. Eynilə də insan mütləq haqq evinə gedən zaman onun yuyulması birinci amil və birinci şərtdir. Əgər birdən həmin insanı yumaq imkanları yoxdursa, şəriətdə ikinci hökm təyəmmüm etməkdir. Su tapılmayan yerdə torpaqdan istifadə etmək mümkündür. Görürsüz ki, yenə də torpaq amili irəli gəlir, torpaq da pakedicilərdəndir. Dinimizdə bir neçə pak edən amillər var ki, od və torpaq da pak edə bilər. Lakin, bunun birinci pakedici amili isə məhz sudur. Sudan sonra digərləri gəlir ki, onlar da insanı pak edə bilərlər. Ona görə də, insanı axirətə yola salanda sudan istifadə etmək vacibdir".

***Rüqəyya Orucova***

# "Nar" müharibə iştirakçılarına dəstəyini davam etdirir

***"Nar" "Yaşa, Vətən" kommunikasiyasının davamı olaraq, Qarabağ müharibəsi iştirakçılarına dəstək məqsədli sosial layihələrini davam etdirir. Belə ki, mobil operator "Gələcəyini Qur!" layihəsi ilə əməkdaşlıq çərçivəsində Qarabağ müharibəsi veteranları və hərbçi ailələrindən 10 məktəblinin universitet hazırlığı xərclərinin ödənilməsini öz üzərinə götürüb. Məqsəd gənclər üçün təhsil imkanlarını daha da əlçatan edərək onların uğurlu gələcəyinə töhfə verməkdir.***




"Gələcəyini Qur!" Gəncliyə Dəstək yüksək bilik və bacarığa malik olan 11-ci sinif şagirdlərini müəyyən edərək, onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. 2014-cü ildən Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin sponsorluğu ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən təhsil alma həvəsi və potensialı olan gəncləri ali təhsilə yiyələnməkdə dəstəkləmək, onları cəmiyyətin tamhüquqlu, məsul, bilikli və bacarıqlı vətəndaşları olaraq inkişaf etməsinə kömək etməkdir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**